*Məktəbəqədər təhsilin keyfiyyətinin qiymətləndirilməsi çərçivəsinə*

*Əlavə 1*

**Məktəbəqədər təhsil müəssisəsinin fəaliyyətini qiymətləndirmə şkalası**

| 1= qeyri-kafi | 2 | 3=kafi | 4 | 5=yaxşı | 6 | 7=əla |
|---|---|---|---|---|---|---|

| SAHƏ 1: Məkanın təşkili və mebellə təchizatı | | | |
|---|---|---|---|
| **1. Daxili məkanın təşkili**<br>*1 – 6 yaş arası uşaqlar üçün* | | | |
| 1.1. Qrup otaqlarının təchizatı uşaqların və tərbiyəçi-müəllimlərin fəaliyyəti üçün uyğun deyil: məkan dardır, uşaqların və tərbiyəçi-müəllimin hərəkəti üçün məhdudiyyətlər yaradır, bəzən yer dar olduğu üçün uşaqlar bir-birilə dalaşır.<br><br>1.2. Qrup otaqları və digər yerlərdə (dəhliz, sanitar qovşağı) işıqlandırma, | 3.1. Qrup otaqlarındakı mebelin yerləşdirilməsi uşaqların və tərbiyəçi-müəllimlərin fəaliyyəti və hərəkəti üçün məhdudiyyətlər yaratmır, otaqda kifayət qədər yer var.[2]<br><br>3.2. Qrup otaqları və digər yerlərdə (dəhliz, sanitar qovşağı) işıqlandırma, | 5.1. Qrup otağında uşaqların və tərbiyəçi-müəllimlərin fəaliyyəti və sərbəst hərəkəti üçün geniş yer var[5]: otaqda böyük və kiçik qruplarla fəaliyyət, sərbəst oyun, hətta qəlyanaltıların verilməsi üçün yer də var .<br><br>5.2. Qrup otaqları və digər yerlər (dəhliz, sanitar qovşağı) işıqlandırma, havalandırma və | 7.1.Təbii işıqlandırmanın idarə edilməsi üçün geniş imkanlar var (böyük açılan və bağlanan pəncərələr, idarə olunan jalüz və pərdələr).<br><br>7.2.Otağın giriş hissəsi genişdir. Qrupda sağlamlıq imkanları məhdud olan uşaqlar və böyüklər üçün giriş yeri var |

[2] "Kifayət qədər yer" otaqda bütün uşaqların rahat, bir-birinə dəymədən hərəkət etməsi üçün yerin olması, masa və oturacaqların uşaqların sayına görə uyğun məsafədə qoyulması deməkdir.

[5] Burada "geniş yer" o deməkdir ki, bütün uşaqlar bir yerdə olduğu halda, onlar bir-birinə dəymir, hər bir uşaq digər uşaqdan uyğun məsafədə otura bilir.

| | | | |
|---|---|---|---|
| havalandırma və istiliyin səviyyəsi qənaətbəxş deyil: qaranlıq, çox isti və ya çox soyuqdur[1]. Kənardan gələn səs-küy tədris prosesinə mane olur.<br><br>1.3. Otaqlar, dəhliz və sanitar qovşaqlarının təmirə ehtiyacı var (divarlarda qopmuş boya, divar və döşəmə örtüklərində çatlar, sanitar qovşaqlarında sıradan çıxmış avadanlıq və su təchizatı).<br><br>1.4. Daxili təmizlik işlərinə ehtiyac var (zibilli xalçalar, çirkli döşəmə və divarlar, tavandakı hörümçək torları, zibil qabları boşaldılmayıb, sanitar qovşaqlarında pis qoxu, çirkli çanaq və unitazlar, kirli əl-üz dəsmalları və s.) | havalandırma və istiliyin səviyyəsi qənaətbəxşdir, kənardan gələn səs qrupdakı fəaliyyətlərə mane olmur: tərbiyəçi-müəllim və uşaqlar bir-birini eşitmək üçün səslərini yüksəltmir, otaq qaranlıq[3] deyil.<br><br>3.3. Məkanın əsaslı təmirə ehtiyacı yoxdur: divarlarda, döşəmələrdə uşaqlar üçün təhlükə yarada biləcək hər hansı vəziyyət müşahidə edilmir.<br><br>3.4. Məkan təmiz və səliqəlidir.<br><br>3.5. Otağın girişi bütün uşaqların və böyüklərin daxil olub hərəkət etməsi üçün əlçatandır.[4] | istiliklə yaxşı təchiz olunub. Böyük pəncərələrdən hava və gün işığı daxil olur, otaq yelçəkəndir, pəncərələr açılır. | (o cümlədən, əlil arabası istifadəçiləri üçün).<br><br>7.3. Binanın daxilindəki səthlər dayanıqlı, səliqəli və asan təmizlənəndir. |

[1] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli qərarı: "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri"nin təsdiq edilməsi haqqında (e-qanun.az)

[3] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli qərarı: "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri"nin təsdiq edilməsi haqqında (e-qanun.az)

[4] Müşahidə aparılan otağa giriş əlçatandırsa, bütün uşaqlar və böyüklər rahat girib-çıxa bilirsə, sağlamlıq imkanları məhdud uşaqlar otaqda olmasa belə, bu indikatora BƏLİ yazılır.

| **2. Qayğı, oyun və tədris üçün mebel və əşyaların yerləşdirilməsi** [6]<br>*1 – 6 yaş arası uşaqlar üçün* | | | |
|---|---|---|---|
| 1.1. Otaqdakı mebel uşaqların sayına uyğun deyil: oturacaqla masaların sayı azdır, uşaqların şəxsi əşyalarını saxlamaq üçün şkaflar mövcud deyil, oyuncaqlar üçün açıq rəflər yoxdur, onların əvəzinə otaqda bütün materialların saxlanıldığı hündür, qapıları bağlı şkaf var.<br><br>1.2. Mebel elə bir vəziyyətdədir ki, qırıqlar və çıxıntılar uşaqları zədələyə bilər, masa və oturacaqların ayaqları laxlayır, yumşaq mebelin üzəri cızıq, çarpayılar qırıqdır.<br><br>1.3. Uşaqların rahat oturması üçün yumşaq mebel yoxdur. Döşəmədə xalça yoxdur. | 3.1. Otaqda oyuncaqlar üçün açıq rəflər, tədris məşğələləri və şəxsi əşyaların saxlanması üçün kifayət qədər mebel var. [7]<br><br>3.2. Demək olar ki, bütün mebellər yaxşı vəziyyətdədir. Mebelin çox az hissəsində kiçik qırıqlar, cızıqlar osa da, bu uşaqların zədələnməsinə şərait yaratmır.<br><br>3.3. Qrupda sağlamlıq imkanları məhdud olan uşaqlar üçün xüsusi təyinatlı mebel mövcuddur. [8]<br><br>3.4. Uşaqlar üçün ən azı iki ədəd yumşaq mebel var. | 5.1. Otaqda geniş mebel assortimenti var: oyuncaqlar üçün açıq rəflər, şəxsi əşyalar, tədris materialları üçün şkaf və rəflər. Uşaqlar fəaliyyətlər və ya qidalanma zamanı bir-birinə mane olmadan lazım olan əşyaları götürə bilirlər.<br><br>5.2. Mebel uşaqların yaşına uyğundur: oturacaqda oturduqda ayaqları yerə çatır (havada qalmır), dirsəklərini normal qaydada masaya qoyurlar, dizləri masanın altında rahat yerləşir.<br><br>5.3. Otaqda xüsusi fəaliyyətlər üçün təchizat mövcuddur: molbert, qum və su oyunları üçün masa, gəlincik oyunları üçün mebel, taxta uzun oturacaqlar. | 7.1. Gündəlik qayğı əşyaları müvafiq otaqda yerləşdirilir: döşəklər, yastıqlar, örtüklər.<br><br>7.2. Xüsusi fəaliyyətlər üçün təchizat mövcuddur (molbert, kompüter, qum və su oyunları üçün masalar).<br><br>7.3. Mebelin vəziyyəti yaxşıdır (qırıqlar, cızıqlar yoxdur), səliqəli və təmizdir.<br><br>7.4. Bütün mebellər çox yaxşı vəziyyətdədir (qırıqlar, cızıqlar yoxdur), səliqəli və təmizdir. |

[6] “Oyun üçün mebellər” dedikdə, uşaqların boylarına görə düzəldilmiş açıq rəflər və həmin rəflərdə uşaqların özləri götürə biləcəkləri oyuncaqların olması nəzərdə tutulur. Əgər otaqda açıq rəflər varsa, amma oyuncaqların sayı cəmi 1-2 ədəddirsə, bu indikatora XEYR yazılır.
[7] “Oyun üçün mebellər” dedikdə, uşaqların boylarına görə düzəldilmiş açıq rəflər və həmin rəflərdə uşaqların özləri götürə biləcəkləri oyuncaqların olması nəzərdə tutulur. Əgər otaqda açıq rəflər varsa, amma oyuncaqların sayı cəmi 1-2 ədəddirsə, bu indikatora XEYR yazılır.(sitat - 6 ilə eynidir)
[8] Bu indikatora TƏTBİQ EDİLMİR yazıla bilər.

| | | | |
|---|---|---|---|
| | | 5.4. Otaqda yumşaq səth mövcuddur: divan, yer üçün bir neçə böyük yastıq, döşək. | |
| **3. Qrup otaqlarının oyun və məşğələlər üçün təchiz olunması**<br>*1–6 yaş arası uşaqlar üçün* | | | |
| 1.1. Otaq darısqaldır, uşaqlar rahat oynaya bilmir.<br><br>1.2. Oyun və məşğələlər üçün təlim resursları azdır, uşaqlar həmin resursları sərbəst götürə bilmir.<br><br>1.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar üçün uşaqları nəzarət altında saxlamaq çətindir, onlar daima göz qabağında olmur, tərbiyəçi-müəllimlərin uşaqları diqqət mərkəzində saxlaması üçün otaqda sərbəst hərəkət etməsinə şərait yoxdur. | 3.1. Otaqda müvafiq guşələr yaradılıb. Hər bir guşə zəruri təlim resursları ilə təchiz edilib və uşaqlar üçün əlçatandır, onlar istədiklərini götürməkdə sərbəstdirlər.<br><br>3.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqları oyun və məşğələ zamanı rahatlıqla görə və eşidə bilər. Otaqda hərəkət və müşahidə etmək üçün heç bir maneə yoxdur.<br><br>3.3. Otaqda sağlamlıq imkanları məhdud olan uşaqların yerləşdirilməsi | 5.1. Otaq uşaqların eyni zamanda bir neçə fərqli fəaliyyətə cəlb olunması üçün zəruri təlim resursları ilə təchiz olunub (sərbəst oyun və məşğələ). Yerini dəyişmək və ya otaqdan çıxmaq istəyən uşaq bunu digərlərinə mane olmadan rahat edə bilir.<br><br>5.2. Sakit və aktiv oyunlar üçün ayrıca yerlər təşkil olunub. Məkanın təchizatı uşaqlara yumşaq bir səthdə uzanmağa, tək kitaba baxmağa və ya sakitcə oynamağa imkan verir.[9] | 7.1. Otaqda ən azı 5 fərqli guşə təşkil olunub. Uşaqlar eyni zamanda müxtəlif fəaliyyətlərlə məşğul ola bilərlər.<br><br>7.2. Guşələr zəruri resurslarla təchiz olunub: qum-su guşəsində müvafiq rəflər, qablar, təmiz su və qum var; incəsənət guşəsində boyalar, su qabları, yaxınlıqda əlüzyuyan var. Bütün səthlər təmiz və səliqəlidir. |

[9] Sakit oyunlar guşəsində yerdə xalça, bir neçə döşəkçə, bəzi yerlərdə balaca divan da ola bilər. Bu guşənin məqsədi ev mühitinə oxşar mühit yaratmaqdır.

| | | | |
|---|---|---|---|
| 1.4. Otaqda sağlamlıq imkanları məhdud olan uşaqları yerləşdirmək üçün şərait yoxdur (bu meyara TƏTBİQ EDİLMİR yazıla bilər). | mümkündür (bu meyara TƏTBİQ EDİLMİR yazıla bilər). | 5.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar otaqdakı bütün funksional zonaları nəzarətdə saxlayır (məsələn, uşaqlar oyun zamanı gizlənmək istəsə belə, tərbiyəçi-müəllim bunu görür və oyuna mane olmadan, uşağı məşğələyə və ya oyuna qaytara bilir).<br><br>5.4. Otaqda təşkil olunan bütün guşələrə sağlamlıq imkanları məhdud olan uşaqlar daxil ola bilər (bu meyara TƏTBİQ EDİLMİR yazıla bilər). | 7.3. Hərəkətli oyunlar üçün otaqda kifayət qədər yer ayrılıb.[10] |
| **4. Fərdi iş üçün yer**<br>*Yalnız 3–6 yaş arası uşaqlar üçün* | | | |

[10] Hərəkətli oyunlara bunlar daxildir: səhnələşdirmələr, tikinti və bloklar guşəsində oyunlar, müxtəlif musiqi alətləri olan musiqi guşəsi. Sakit fəaliyyətlər bunlardır: kitabla oturmaq, hekayə dinləmək. Sakit və səs-küylü fəaliyyətlər üçün ayrılmış guşələr bir-birindən elə ayrılmalıdır ki, orada fəaliyyət təşkil olunduqda uşaqlar bir-birinə mane olmasınlar. Guşələr yalnız mebel ilə deyil, həm də məkan olaraq da bir-birindən ayrılmalıdır.

| | | | |
|---|---|---|---|
| 1.1. Uşaqların otaqda və ya həyətdə müstəqil və ya bir qrup yoldaşı ilə oynamasına icazə verilmir (məs: uşaqlar daim böyük qrup şəklində fəaliyyətdədir, qrupdan ayrılmağa icazə verilmir, həyətdə yalnız böyük qrup şəklində oynayırlar).<br><br>1.2. Müstəqil və ya başqa biri ilə oynayan uşaqlar üçün əlverişli şəraiti təmin edən qayda və təlimatlar yoxdur (uşaqlar oyuncaqları bir-biri ilə paylaşmırlar, tərbiyəçi-müəllim və digər əməkdaşlar bəzən izahat vermədən onları oyuncağı qaytarmağa və ya başqa uşağa verməyə məcbur edir. Uşaqların fərdi fəaliyyətləri başqaları tərəfindən asanlıqla pozulur).<br><br>1.3. Tərbiyəçi-müəllimlər uşaqlarla ünsiyyət qurmur, onlara yalnız əmr formasında müraciət edirlər. Müstəqil və ya cüt şəkildə oynamağa cəhd edən uşaqlara qarşı kobud | 3.1. Uşaqlara müstəqil və ya qrup yoldaşı ilə oynamaq üçün şərait yaradılır. Oyun zonaları və guşələr uşaqların maraqlarına uyğun təchiz olunub və onlar orada fəaliyyətə cəlb edilirlər.<br><br>3.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlar hər hansı mübahisəli məsələlərə müdaxilə edir və uşaqlarla müsbət ünsiyyət qururlar. [11] | 5.1. Daxili məkanda oyun zonası hər kəs üçün əlçatandır və uşaqlar öz istəyi ilə tək, cüt və ya qrup şəklində oynaya bilərlər (1 uşaq molbertin qabağında, 1-2 uşaq yazı masası arxasında, 1-2 uşaq arxalıqlı yumşaq mebel üzərində oturaraq məşğuldur).<br><br>5.2. 5.1-ci indikatorda təsvir edilənlər ən azı 1 saat ərzində müşahidə olunur.<br><br>5.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqların fərdi şəkildə məşğuliyyətinə hörmətlə yanaşır və onların təklikdə məşğul olmaq istəyini qorumağa çalışır. Digər uşaqların kobud müdaxiləsinə yol verilmir (uşaqlara qaydalar izah olunur, tək və ya kiçik qrupda oynamaq üçün özünə dost seçmək imkanı verilir, kobud müdaxilələr baş verdikdə, uşaqlara səbəbləri izah olunur və qarşısı alınır). | 7.1. Tərbiyəçi-müəllim və digər əməkdaşlar tək oynamaq istəyən uşaqlarla müsbət ünsiyyət qurur, uşaqların suallarına və müxtəlif istəklərinə müsbət cavab verir, onlarla fikir mübadiləsi aparır. (Bu hal 2 və daha artıq olarsa)<br><br>7.2. Uşaqlar oyuncaqları götürmək istədikdə, onlara bölüşməyin qaydaları izah edilir, təklikdə oynamaq istəyən uşağa oyuncaq və digər materialları seçməyə və götürməyə imkan yaradılır. |

[11] Tərbiyəçi-müəllimlərin müdaxiləsi problemin həllinə yönəldilir və problemi həll edir, onların müdaxiləsi yekunlaşdıqdan sonra, yenidən problem yaranmır.

| | | | |
|---|---|---|---|
| davranır, səbəbi izah etmədən onları böyük qrupla birləşməyə məcbur edirlər. | | | |
| **5. Məkanın uşaqlara nümayiş etdirmək üçün əşya, şəkil, təqvimlər və posterlərlə təchiz olunması** [12]<br>*1–6 yaş arası uşaqlar üçün* | | | |
| 1.1. Qrup otağının və dəhlizin təchizatında uşaqlar üçün nümayişetdirici materiallar yoxdur.<br><br>1.2. Nümayişetdirici materiallar uşaqların yaş səviyyəsinə uyğun deyil (qrammatik qaydalar, riyazi cədvəllər, bütün qruplarda uşaqların oxuya bilməyəcəyi plakatlar və cədvəllər). | 3.1. Qrup otağında uşaqlar üçün bir neçə nümayişetdirici material vardır və onların yaş səviyyəsinə uyğundur (məsələn: rəngli posterlər, cədvəllər, uşaqların əl işi və s.)<br><br>3.2. Uşaqların çəkdiyi ən azı 2 rəsm qrup otağının bir divarında asılıb. Uşaqlar rəsmi görür və onun barəsində məlumat verə bilirlər. | 5.1. Qrup otağında uşaqlar üçün çoxlu nümayişetdirici materiallar vardır və onların yaş səviyyəsinə uyğundur.<br><br>5.2. Bəzi materiallar qrupda hazırda tədris olunan mövzuya aiddir (məs.,mövzu fəsillərdirsə, havanın fəsillərə görə dəyişməsini əks etdirən plakatlar). Riyazi guşədə həndəsi fiqurlar, fiqurlara aid şəkillər yerləşdirilir. | 7.1. Nümayiş olunan material uşaqların hal-hazırda nəyi öyrəndikləri barədə məlumat verir.<br><br>7.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqları məlumat mübadiləsinə cəlb etmək üçün nümayişetdirici materiallara müraciət edirlər. [13]<br><br>7.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar plakatları və digər |

[12] Burada ən vacib odur ki, qeyd olunanlar uşaqların göz səviyyəsində olsun, onlara maraqlı olsun və onların daim vaxt keçirdikləri yerdə yerləşdirilsin. Əgər qrup otağında posterlər yuxarıdadırsa, onların ölçüləri uşaqların görəcəyi və anlayacağı qədər böyük olmalıdır. Uşaqların fəaliyyəti üçün rəflərdə və qutularda edilən markirovka (işarələnmə) bu indikatora aid deyil.

[13] Bu faktı müşahidə edərək bir dəfə görmək BƏLİ yazmaq üçün kifayətdir.

| | | | |
|---|---|---|---|
| 1.3. Tərbiyəçi-müəllimlər uşaqlarla söhbət/məşğələ zamanı nümayişetdirici materiallara müraciət etmir. | 3.3. Müşahidə zamanı tərbiyəçi-müəllimlər ən azı bir dəfə uşaqların diqqətini nümayiş olunan materiala yönəldir və bu barədə danışırlar (məs., təqvimdə tarixi qeyd edir, uşaqlardan birinin çəkdiyi rəsmi göstərir və onun haqqında danışır, hava təqvimini göstərən plakat haqqında danışır, qrupdaxili qaydaları xatırladır və s.) | 5.3. Nümayiş olunan materialın üçdə iki hissəsi uşaqların əl işləridir və onların fərdi bacarıqlarını göstərir.<br><br>5.4. Tərbiyəçi-müəllim və digər əməkdaşlar nümayiş olunan materiallara həm məşğələ, həm də oyun zamanı uşaqların diqqətini cəlb etmək və maraqlarını oyatmaq üçün dəfələrlə müraciət edirlər. | materialları göstərərək saymağı və hərf seçməyi öyrədirlər.<br><br>7.4. Qrup otaqlarında müstəvi fiqurlarla yanaşı uşaqların yaratdıqları fəza fiqurları da mövcuddur. |
| **6. Böyük motor bacarıqlarını inkişaf etdirən oyunlar üçün yer**<br>*Yalnız 3–6 yaş arası uşaqlar üçün* | | | |
| 1.1. Müəssisənin daxilində və həyətində böyük motor bacarıqlarını inkişaf etdirən oyunlar üçün yer ayrılmayıb.<br><br>1.2. Müşahidə olunan böyük motor bacarıqlarını inkişaf etdirən oyunların təşkil olunduğu yer çox təhlükəlidir (hasarsız, küçəyə çıxışı olan, səthi qeyri-bərabər, daş, quyu olan yerdə). | 3.1. Müəssisənin daxilində və ya həyətində böyük motor bacarıqlarını inkişaf etdirən oyunlar üçün minimum bir yer ayrılıb və ən az 15 dəqiqə ərzində istifadə edilir.<br><br>3.2. Böyük motor bacarıqlarını inkişaf etdirən oyunlar üçün həyətdə ayrılmış sahə təhlükəli deyil: uşaqların həyat və sağlamlığı üçün risk yarada biləcək daş qırıntıları, quyular müşahidə edilmir, həyət hasara alınıb, maşın daxil olmur. | 5.1. Böyük motor bacarıqlarını inkişaf etdirən oyunlar üçün sahə geniş və rahatdır, uşaqların müxtəlif fəal oyunlar oynamağına, qaçmağına və təkərli oyuncaqları sürməyinə şərait var.<br><br>5.2. Böyük motor bacarıqlarını inkişaf etdirən oyunlar üçün sahə ən azı 30 dəqiqə ərzində istifadə edilir. [14]<br><br>5.3. Böyük motor bacarıqlarını inkişaf etdirən oyunların | 7.1. Müşahidə olunan böyük motor bacarıqlarını inkişaf etdirən oyunlar üçün sahə iki hissədən ibarətdir: biri yumşaq səthlidir, digəri bərkdir, beləliklə, uşaqlar fərqli oyunlara cəlb oluna bilərlər.<br><br>7.2. Həyətdə oyun sahəsinin yerləşməsi çox əlverişlidir: sanitar qovşağı yaxınlıqdadır, uşaqların günəş şüalarından və yağıntıdan qorunması üçün kölgəsalan örtüklər quraşdırılıb, daşınan oyuncaqlar üçün |

[14] Əgər hava şəraiti həyətdə oynamağa imkan vermirsə, içəridə bunun üçün yer və vaxt ayrılır.

| | | | |
|---|---|---|---|
| 1.3. Müşahidə keçirilən gün ərzində böyük motor bacarıqlarını inkişaf etdirən oyun sahəsində 10 dəqiqədən az vaxt keçirilib. | | keçirilməsi üçün sahə təhlükəsiz təşkil olunub, daş qırıntıları yoxdur, müəyyən cızıqlar var, lakin uşaqların həyatı üçün risk yaratmır. Sahə sakit və hasarlanmış yerdədir.<br><br>5.4. Böyük motor bacarıqlarını inkişaf etdirən oyunlar üçün ayrılmış sahəyə giriş rahatdır, pilləkənlə qalxıb-düşməyə, həyətdən küçəyə çıxmağa, yolu keçməyə ehtiyac yoxdur. | anbar, qrup otaqlarına birbaşa giriş var.<br><br>7.3. Böyük motor bacarıqlarını inkişaf etdirən oyunlar üçün ayrılmış sahədə təkərli oyuncaqlar sürmək, divara dırmaşmaq (isveç divarı), qaçmaq, topla oynamaq istəyən uşaqlar bir-birinə mane olmurlar. |
| **7. Böyük motor bacarıqlarını inkişaf etdirən oyunlar üçün təchizat**<br>*Yalnız 3–6 yaş arası uşaqlar üçün* | | | |
| 1.1. Müəssisənin daxilində və həyətində böyük motor bacarıqlarını inkişaf etdirən oyunlar üçün təchizat çox azdır və uşaqlar uzun müddət növbə gözləməli olur.<br><br>1.2. Təchizat uşaqların yaşına uyğun deyil və ya yararsız vəziyyətdədir (qırıqlar, çıxıntılar, sürüşkən səthlər, çox hündür pilləkənlər, boşalmış toplar, qırıq təkərli oyuncaqlar və s.). | 3.1. Müşahidə aparılan gün ərzində böyük motor bacarıqlarını inkişaf etdirən oyunlar üçün təchizat 15 dəqiqə uşaqların istifadəsinə verilir (hər bir uşaq uzun müddət gözləmədən təchizatdan istifadə edə bilir).<br><br>3.2. Müşahidə olunan təchizat uşaqların yaş səviyyəsinə uyğundur. Böyük hissəsi yaxşı vəziyyətdədir. | 5.1. Sahədə uşaqları cəlb etmək və maraqlandırmaq üçün müxtəlif daşınan və statik təchizat var.<br><br>5.2. Bütün müşahidə olunan təchizat uşaqların yaşına və bacarıqlarına uyğundur. [16]<br><br>5.3. Uşaqlar bütün bunlardan azı 30 dəqiqə ərzində istifadə edə bilir.<br><br>5.4. Əgər qrupda sağlamlıq imkanları məhdud olan uşaqlar | 7.1. Uşaqların rahat və növbəsiz istifadəsi üçün təchizatın olması müşahidə olunur (toplar, digər oyuncaqlar uşaqların sayına uyğundur).<br><br>7.2. Təkərli təchizatdan istifadə üçün uşaqlar dəbilqə taxır, bunu özləri edirlər.<br><br>7.3. Təchizat yaxşı vəziyyətdədir və kompleks bacarıqların formalaşmasına şərait var (qolf üçün kiçik |

[16] Burada 3.3. indikatoruna baxmaq tövsiyə edilir.

| | | | |
|---|---|---|---|
| 1.3. Müşahidə  aparılan gün ərzində təchizat 10 dəqiqədən az müddətdə istifadə edilir. | 3.3. Təchizat azı 7 fərqli bacarığın formalaşmasına şərait yaradır. [15] | varsa, onlar üçün müvafiq təchizat var (TƏTBİQ EDİLMİR yazıla bilər). | quyular, badminton və tennis, təlim təkərləri olan velosiped). |
| **SAHƏ 2: Uşaqlara fərdi şəkildə göstərilən qayğı** | | | |
| **8. Yemək\qəlyanaltı rejimi**<br>*1–6 yaş arası uşaqlar üçün* | | | |
| 1.1. Verilən yeməklər tələb olunan standatlara uyğun deyil.<br><br>1.2. Sanitar tələblərə uyğunluq müşahidə edilmir.[17]<br><br>1.3. Mənfi ab-hava:uşaqlar uzun müddət gözləməli olur, uşaqlardan gözlənilən davranış onlardan kobud şəkildə tələb olunur, cəzalar verilir və s. | 3.1. Uşaqlar üçün uyğun qidalanma cədvəli müşahidə olunur (uşaqlar çox gözləməli olmur, istənilən anda su verilir, gecikən uşaqlara da yemək təklif olunur).<br><br>3.2. Təklif olunan menyu dövlət standartlarına uyğundur. Evdən gətirilən yeməklərə də nəzarət edilir. Allergiya və digər | 5.1. Yemək zamanı cədvəl çevikdir: yeməyi bitirən uşaqlar gözləməli olmur, başqa fəaliyyətə keçir, gec gələn uşaqlara səhər yeməyi təklif olunur.<br><br>5.2. Yeməklərin tələb olunan komponentləri hamısı birlikdə verilir: məs., naharla birlikdə salat və kompot, səhər yeməyində çayla buterbrod və | 7.1. Bütün sanitar-gigiyenik tələblərə riayət edilir və uşaqlara bunun mahiyyəti izah edilir.<br><br>7.2. Yemək zamanı otaqda atmosfer xoş və rahatdır: uşaqlar kiçik qrupda yeyir (böyük qrupda böyük masa arxasında deyil); uşaqlar bir-biri ilə və əməkdaşlarla ünsiyyət qurur, buna baxmayaraq səs- |

[15] 7 fərqli bacarıq dedikdə bunlar nəzərdə tutulur: qaçmaq-hoppanmaq, dartmaq, itələmək (oyuncağı əl ilə və ya ayaq ilə), qollarla sallanmaq, yellənmək, kəndirdən hoppanmaq, hoppana-hoppana hərəkət etmək. Müşahidəçi uşaqların hansı hərəkətləri edə bildiyini müşahidə edir və hamısını qeyd edir.

[17] Burada yeməkdən öncə və sonra əllərin yuyulması, masaların təmizlənməsi (həm qrup otaqlarında, həm yeməkxanada) və qida məhsullarının yuyulması nəzərdə tutulur.

| | | | |
|---|---|---|---|
| | qidalanma ilə bağlı xüsusi ehtiyaclara diqqət yetirilir.<br><br>3.3. Sanitar-gigiyena tələbləri qarşılanır: masalar təmizlənir, uşaqlar və əməkdaşlar əllərini yuyur, yeməklər təmiz qablarda verilir. | s., meyvələrin verilməsi digər yeməklərlə qarışmır.<br><br>5.3. Bütün sanitar-gigiyenik tələblər qarşılanır: uşaqlar və əməkdaşlar əllərini sabunla yuyur və spirtli maye ilə dezinfeksiya edir, masalar tez-tez təmizlənir və yeməkdən sonra sabunla yuyulur.<br><br>5.4. Yemək zamanı uşaqlar əməkdaşlara kömək edirlər: qablarını gətirib masaya düzürlər, masaya su və yemək qırıntıları töküblərsə, salfetdən istifadə edərək silir, zibil qabına atırlar və s.[18]<br><br>5.5. Uşaqlar bir-biri ilə və əməkdaşlarla söhbət etməyə həvəsləndirilirlər. | küy yoxdur, əməkdaşlar uşaqlar ilə birlikdə oturur və xoş ünsiyyəti modelləşdirir.[19]<br><br>7.3. Əməkdaşlar uşaqlara özünə qulluq vərdişlərini öyrədir: onlara qaşıq və çəngəllə yeməyi, salfetdən istifadə etməyi öyrədirlər. |
| **9. Tualet sahəsi və şəxsi gigiyena** [20]<br>*1–6 yaş arası uşaqlar üçün* | | | |

[18] TƏTBİQ EDİLMİR yazıla bilər
[19] Burada yeməkdən öncə və sonra əllərin yuyulması, masaların təmizləməsi (həm qrup otaqlarında, həm yeməkxanada) və qida məhsullarının yuyulması nəzərdə tutulur.
[20] 3 yaşdan yuxarı uşaqlar üçündür.

| | | | |
|---|---|---|---|
| 1.1. Tualet sahələrində sanitar-gigiyenik şərait tələblərə cavab vermir: sanitar qovşaqlarında su gəlmir, tualet kağızı, əl yumaq üçün sabun, əl qurulamaq üçün salfet və ya əl-üz dəsmalları yoxdur. Tualetlər qrup otaqlarından çox aralıdır.<br><br>1.2. Sanitar-gigiyenik tələbləri yerinə yetirməkdə səylər göstərilmir: əməkdaşlar əllərini yumur, uşaqlar tualet ehtiyacından sonra vaxtında yuyulmur, sabun və digər dezinfeksiyaedici vasitələrdən istifadə edilmir, uşaqlara qulluq gec olunur, onlar çirkli paltarda bir müddət oturub təmizlənməyi gözləyirlər. Səthlər vaxtında təmizlənmir.<br><br>1.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqları tualetə tək buraxır, gigiyenik tələbləri izah etmir, icra olunmasına nəzarət etmirlər. Bəzən qulluğa ehtiyacı olan uşaqlara kobud münasibət göstərirlər (dartır, itələyir, | 3.1. Sanitar-gigiyenik tələblər qarşılanır: uşaqların bezləri ən az 1 dəfə yoxlanılır və lazım olduqda dəyişdirilir, gözlənilməz hallar müşahidə edilmir (yəni uşaqlar nəzarətsiz halda tualet ehtiyaclarını etmir, təmizlənmədən qalmır və s.), tualetə getmək üçün qrupun cədvəlində vaxt ayrılır.<br><br>3.2. Tualetlərdə və qrup otaqlarında sabun, nəm və quru salfetlər, kağız və ya parça əl-üz dəsmalları var. Əgər hər hansı bir vasitə bitirsə, əməkdaşlar dərhal onu təzələyirlər. [21]<br><br>3.3. Sanitar-gigiyenik tələblərin yerinə yetirilməsinə cəhd göstərilir (tualetlər təmizlənir, körpələr üçün tualet sahəsində bezlərin dəyişdirilməsi üçün nəzərdə tutulan masanın üstü təmizlənir, uşaqlar və əməkdaşlar əllərini tez-tez yuyurlar). | 5.1. Tualet rejimi fərdiləşdirilib: uşaq istənilən vaxt tualetə götürülə bilər. Hər 2 saatdan bir bezlər yoxlanılır və dəyişdirilir. Həyətdə oynayan uşaqlar üçün yaxınlıqda tualet sahəsi mövcuddur.<br><br>5.2. Sanitar-gigiyenik tələblərin çoxu qarşılanır: uşaqlar və əməkdaşlar əllərini yuyarkən sabundan istifadə edirlər, əl-üzyuyanlar təmizlənir.<br><br>5.3. Bütün sanitar-gigiyenik prosedurlar zamanı əməkdaşlar və uşaqlar arasında xoş ünsiyyət müşahidə edilir. Uşaqlara gigiyenik prosedurların mahiyyəti izah olunur. | 7.1. Tualet sahəsində uşaqlar üçün unitazlar və əlüzyuyanlar, təmizləyici və dezinfeksiyaedici vasitələr mövcuddur və istifadə edilir.<br><br>7.2. Sanitar-gigiyenik tələblər tam qarşılanır: uşaqlar və əməkdaşlar əllərini tez-tez yuyur, sabun və digər dezinfeksiyaedici vasitələrdən istifadə edir. Əlüzyuyanlar və unitazlar təmizlənir.<br><br>7.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqların ehtiyaclarını qarşılamağa çalışır, xoş münasibət göstərirlər. Bütün gigiyenik prosedurların mahiyyəti uşaqlara izah edilir. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqlarla bütün hallarda çox səbirli və dəstəkləyici şəkildə davranırlar. |

[21] "Bitib, indi gətiririk" deyib, amma gətirmirlərsə, bu meyara XEYR yazılır.

| | | | |
|---|---|---|---|
| qışqırır, xoş olmayan sözlərlə müraciət edir, xoşagəlməz zarafatlar edirlər). | 3.4. Əməkdaşlar uşaqların gigiyenik tələbləri yerinə yetirməsinə nəzarət edir (yaxında olan tualetə tək gedən uşaqla danışır, göstərişlər verir, uşaqlara qaydaları izah edirlər), bir neçə uşağı tualetə nəzarətsiz qoymurlar.[22] | | |
| **10. Sağlam həyat vərdişlərinin formalaşdırılması və profilaktik prosedurlar [23]**<br>*1–6 yaş arası uşaqlar üçün* | | | |
| 1.1. Uşaqlarda sağlam həyat vərdişlərinin formalaşmasına az diqqət yetirilir. [24]<br><br>1.2. Yataq otağında uşaqlar öz çarpayılarını tanımır, kim harada istəyir yatır. Təmiz uşaq bezlərində yatmırlar. Uşaqlar üst paltarlarında yatırlar. | 3.1. Tərbiyəçi-müəllim və digər əməkdaşlar tez-tez sanitar-gigyenik prosedurları uşaqların yadına salırlar: əllərin sabunla yuyulması və ya sabun olmadıqda əllər üçün antiseptik vasitə ilə təmizlənməsi, içməli olmayan müxtəlif konteynerlərdən suyun içilməməsi, burunu sildikdən | 5.1. Tərbiyəçi-müəllim və digər əməkdaşlar öz nümunələri ilə uşaqları düzgün vaxtda və tərzdə əl yumağa öyrədirlər (tualetdən sonra, gəzintidən qayıtdıqda, yeməkdən əvvəl).<br><br>5.2. Yataq otağındakı şərait sanitar-gigiyenik tələblərə uyğundur: hər uşağın fərdi yeri | 7.1. Sanitar-gigiyenik prosedurların hamısı düzgün yerinə yetirilir.<br><br>7.2. Uşaqlara prosedurları sərbəst şəkildə yerinə yetirmək öyrədilir. Dəstəyə və izaha ehtiyacı olanlara müvafiq |

[22] Bu hallar tərbiyəçi-müəllim qrupu nəzarətsiz qoya bilməyəndə və ya tualet sahəsi otağa yaxın olanda, həmçinin uşağı sərbəstliyə öyrətmək istəyəndə baş verə bilər.

[23] Bu prosedurlar əllərin mərhələli şəkildə yuyulması kateqoriyalarını izah edir. Prosedurlar təkcə 8 nömrəli (əllərin yeməkdən əvvəl/sonra yuyulması) və 9 nömrəli bəndləri (tualetdən istifadə/bezlərin dəyişdirilməsi zamanı əllərin yuyulması) əhatə etmir, eyni zamanda əllərin digər hallarda da mütəmadi yuyulmasını nəzərdə tutur. Məsələn, əllərin yuyulması azı 4 dəfə baş tutmalıdır: 1) uşaq bağçaya gələndə; 2) nəm materialların istifadəsindən qabaq və sonra (plastilin, su və qum); 3) birlikdə oyuncaqlar ilə oynayandan sonra; 4) zibil qabları və ya həyətdə çöl heyvanları ilə təmasdan sonra. Bu meyara görə bal yazmaq üçün müşahidəçi əl yumaq prosedurlarını izləməli və sayını qeyd etməlidir. Bu altsahəyə həm də məktəbəqədər təhsil müəssisəsində siqaret çəkməyin qadağan olmasına riayət edilməsi, əməkdaşlar tərəfindən sağlam həyat tərzinin modelləşdirilməsi də daxildir.

[24] 1.1. meyara BƏLİ yazmaq üçün bunlar müşahidə olunmalıdır: bağçaya gələn uşaqların əlləri yuyulmur, əməkdaşlar əllərini yumur, həyətdən qayıdanda əllər yuyulmur; uşaqların burunlarından maye axırsa, ona diqqət yetirilmir; çöl heyvanlarının ekskrementləri həyətdə görünür, amma onu kimsə təmizləmir. Əgər

| | | | |
|---|---|---|---|
| 1.3. Müəssisənin daxilində və ərazisində siqaret çəkməyi qadağan edən işarələr yoxdur. Müəssisənin həyətində istifadə olunmuş siqaret kötükləri görünür, bəzən siqaret qoxusu gəlir. | sonra salfetin zibil qutusuna atılması və s.<br><br>3.2. Yataq otağında bezlər təmizdir, hər uşağın özünün yeri var, uşaqlar paltarlarını dəyişib yatırlar.<br><br>3.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar müsbət münasibətlə və mahiyyətini izah edərək uşaqları gigiyenik prosedurlara öyrəşdirirlər. | var, uşaq bezləri təmizdir, uşaqların yatmaq üçün ayrıca paltarı var, yorğan-döşəklər səliqəli və təmizdir. [25]<br><br>5.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqlar üçün nümunə olmağa çalışırlar: uşaqların qarşısında sağlam qida yeyir (meyvə, tərəvəz, yoqurt, su); yemək yeyərkən\çay içərkən ayaq üstə durmurlar; həyətə çıxanda fiziki aktivliyə həvəsli olmağı modelləşdirir; əllərini düzgün formada yuyurlar. | izahat verilir və lazımi kömək göstərilir.[26]<br><br>7.3. Qrup otaqlarında və sanitar qovşaqlarında sanitar-gigiyenik prosedurlara aid posterlər və şəkillər asılıb, əməkdaşlar onlardan istifadə edərək uşaqlara əllərin yuyulmasını, dişlərin fırçalanmasını, burunların silinməsini öyrədirlər.[27] |

müşahidə zamanı uşaqların sərbəst şəkildə əllərini yuması, tualetdə özünə qulluq hərəkətlərini müşahidə edirsinizsə, bu meyara XEYR yazılmalıdır, çünki artıq görünür ki, uşaqlara bütün bunlar əvvəlcədən öyrədilib.

[25] Əlavə (müşahidə zamanı işlənməyən) yorğan-döşəklərin saxlandığı yerə də baxılmalıdır.

[26] "Sərbəst yerinə yetirmək" hər şeyi düzgün yerinə yetirmək deməkdir, əgər uşaq nəyisə etmək istəyir, amma düzgün etmir, bu meyara BƏLİ yazılmır. Əməkdaşların "dəstəkləyici" hərəkətlərinin nümunələri bunlardır: əl yumaq prosedurlarını düzgün edən uşaqları tərifləmək, əl yumağa dair mahnı oxumaq və ya şeir danışmaq, uşaqlar burunlarını silib salfeti zibil qabına atanda, əllərini yuyanda, uşaq özü geyinib-soyunursa, başqa uşağa bunu etməkdə kömək edirsə, tərifləmək.

[27] Bu kimi nümayişetdirici materiallar müvafiq yerlərdə (tualetdə, yeməkxanada), uşaqların gözləri səviyyəsində olmalı və müşahidələr zamanı əməkdaşların onlara müraciət etmələri görünməlidir ki, meyara BƏLİ yazılsın.

| **11. Təhlükəsizlik və nəzarət**<br><br>Qeyd etmək lazımdır ki, fiziki aktivliyə və inkişafa həvəsləndirən mühit tamamilə təhlükəsiz olmaya bilər. Buna görə hazırkı altsahənin məqsədi uşaqlar üçün ciddi risk yarada biləcək məqamlara və davranışlara qarşı həssas yanaşmanı yaratmaq və onları minimallaşdıracaq tədbirləri həvəsləndirməkdir.<br><br>*1–6 yaş arası uşaqlar üçün* | | | |
|---|---|---|---|
| 1.1. Həyətyanı sahədə uşaqlar üçün çoxlu təhlükəli qurğular və yerlər var. [28]<br><br>1.2. Uşaq bağçasının binasının daxilində uşaqlar üçün təhlükə yarada biləcək qurğular və yerlər müşahdə olunur.[29]<br><br>1.3. Uşaqların təhlükəsizliyinin təmin olunmasında boşluqlar var (uşaqlar qrup otağında, tualetdə və ya həyətdə uzun müddət nəzarətsiz qalır, böyük motor bacarıqlarını inkişaf etdirən oyunlar zamanı | 3.1. Həyətyanı sahədə 3 və daha az təhlükə yaradan qurğu, əşya və ya yer var.[30]<br><br>3.2. Uşaq bağçasının binasının daxilində 3 və ya daha az təhlükə yaradan qurğu, əşya və ya yer var.<br><br>3.3. Uşaqlara nəzarət hər zaman var, onlar həyətdə, qrup otağında və tualetdə tək olmur. Uşaqların təhlükə yarada biləcək hərəkətlərinə və oyunlarına yol verilmir. | 5.1. Həyətyanı sahədə və müəssisənin daxilində 2 və daha az təhlükə yaradan qurğu, əşya və ya yer var. [31]<br><br>5.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlar təhlükəsizlik məsələlərinə diqqətli yanaşır və preventiv hərəkətlər edirlər: yıxılmaq/sürüşmək riski olan yerlərdə oyuncaqları saxlamırlar, qapılar lazım olduqda bağlanır, içəridə pilləkənlər tez-tez silinir və qurulanır, mətbəxə uşaqlar daxil ola bilmir, | 7.1. Ciddi təhlükə yarada biləcək şərait\faktorlar müşahidə olunmur.<br><br>7.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlar üçün uşaqların təhlükəsizliyi prioritetdir, onlar daim uşaqları nəzarətdə saxlayır və preventiv tədbirlər görürlər (“mənim qrupum, onun qrupu” kimi ifadələr müşahidə olunmur).<br><br>7.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar risklərin aradan qaldırılması üçün uşaqların |

[28] Burada oyun meydançasına yaxın işıq transformatorları, açıq su anbarları və ya su bakları, “qum-su” oyun ərazisinə yaxın elektrik çıxışı, təmir olunan səki/asfalt, sulanan bağ, sınmış taxtalar, təmir üçün gətirilən, amma istifadə edilməyən inşaat materialları, hündür pilləkən və s. olmamalıdır. Bütün bunlar yoxdursa, TƏTBİQ EDİLMİR yazıla bilər.

[29]Burada otaqda açıq elektrik çıxışları, sınmış, müxtəlif çıxıntıları olan döşəmə, sınmış metal oyuncaqlar, tualetdə uşaqlar üçün əlçatan yerdə qoyulmuş xlor tərkibli maye, qaynar su və s. kimi risklər nəzərdə tutulub.

[30] 3.1-ci meyara TƏTBİQ EDİLMİR yazıla bilər.

[31] 5.1-ci meyara TƏTBİQ EDİLMİR yazıla bilər.

| | | | |
|---|---|---|---|
| tərbiyəçi-müəllimlər tərəfindən onlara diqqət yetirilmir, yemək zamanı qaynar şorba və ya su uşaqların qabağına qoyulur, uşaqlar nəzarətsiz mətbəxə girir).<br><br>1.4. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqları təhlükəli davranışa yönəldirlər (bıçağı mətbəxə qaytarmağa göndərir, qaynar su/yemək olan qabı uşaqların əlinə verir, pilləkəndə tələsdirir və qaçmağa həvəsləndirir, təhlükəli olan həyətyanı sahədə 'gizlənpaç' oyunu oynamağa icazə verir). | 3.4. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqları təhlükəli oyunlara/hərəkətlərə həvəsləndirmirlər. | dezinfeksiyaedici mayelər qapalı rəflərdə yerləşdirilir və s.<br><br>5.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqların təhlükə yarada biləcək davranışlarını dayandırırlar. | fərdi xüsusiyyətlərini nəzərə alır: daha impulsiv uşağa çox diqqət yetirirlər, daha çox təhlükə yarada biləcək təchizatın yanında daim 1-2 nəfər böyük olur və s. |
| **SAHƏ 3. Nitq  inkişafı və savad təlimi** | | | |
| **12. Uşaqların söz ehtiyatının  zənginləşməsi və idrakın inkişafı  üçün nitqdən istifadə səviyyəsi** | | | |
| *3–6 yaş arası uşaqlar üçün* | | | |
| 1.1. Tərbiyəçi-müəllim və digər əməkdaşlar çox məhdud sayda söz və ifadələrdən istifadə edirlər (konkret əşyaların adı, hərəkət bildirən sözlər, bir neçə təsviredici söz, əşyanın adının yerinə "bu", "o", "onu", "bunu" | 3.1. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqlara günlük fəaliyyət rejimi zamanı yeni sözləri öyrətməyə cəhd edirlər (məs.: yemək zamanı qida məhsullarının adlarını sadalayır, yemək üçün istifadə olunan qab-qacaqları adlandırır, hərəkət bildirən sözləri deyirlər). | 5.1. Tərbiyəçi-müəllim və digər əməkdaşlar gün ərzində insanları, obyektləri, hadisələri təsvir edən sözlərdən istifadə edirlər.<br><br>5.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlar yeni sözlərin mənasını uşaqların anladığı tərzdə izah etməyə çalışırlar | 7.1. Tərbiyəçi-müəllim və digər əməkdaşlar fərqli yaş qruplarına bir sözün mənasını öyrətmək üçün müxtəlif söz və ifadələrdən istifadə edirlər (çox istifadə edilməyən sözlərin istifadəsi balın yazılmasına imkan verir: kəsmək – kəsik-kəsik etmək; ayırmaq – çeşidləmək; sevinmək – |

| | | | |
|---|---|---|---|
| kimi sözlərdən istifadə edirlər).[32]<br><br>1.2. Tərbiyəçi-müəllim və digər əməkdaşların öyrətdikləri sözlər uşaqların real həyat təcrübələrinə uyğun deyil (məs.: məşğələ zamanı həftənin günləri öyrədilir, amma gündəlik söhbətlərdə həftənin günləri qeyd olunmur, havanı təsvir edən sözlər öyrədilir, lakin gündəlik hava haqqında danışılmır).<br><br>1.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar qrup otağında olan poster və şəkillərdən, digər nümayişetdirici materiallardan söz ehtiyatının zənginləşdirilməsi üçün istifadə etmirlər. Oyun zamanı uşaqlara | 3.2. Əşyaları, insanları və fəaliyyətləri təsvir edən sözlər uşaqlara real kontekstdə öyrədilir (məs., geyinmə vaxtı “sənin köynəyin *mavi rəngdədir*”, yemək vaxtı “bu gün biz *alma* kompotu içirik”, gəzintiyə çıxanda “biz *yavaş* yeriməliyik” kimi ifadələrdən istifadə edilir).<br><br>3.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar bəzən (1-2 dəfə) yeni sözləri öyrətmək məqsədilə nümayişetdirici materiallara uşaqların diqqətini yönəldirlər. | (məs,: “Nigaranam” mən sənin necə olduğunu düşünürəm deməkdir”; “Nəm” havada olan çox xırda su damlalarıdır, ona görə adam islanır” və s.).<br><br>5.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar tez-tez yeni sözləri öyrətmək məqsədilə nümayişetdirici materiallardan istifadə edirlər.<br><br>5.4. Nitq ləngiməsi olan uşaqlar üçün spesifik uyğunlaşmalar tətbiq edilir (fərqli tapşırıqlar, sözlərin mənasını əl ilə izah etmək, iki dildə sözlərin mənasını demək, jest dilindən istifadə, kompüter texnologiyalarından istifadə). TƏTBİQ EDİLMİR yazıla bilər. | şadlanmaq; kədərlənmək – məyus olmaq; narahat olmaq – nigaran qalmaq; istəmək – arzu etmək və s., sadəcə “balıq” demək yerinə balığın növünü söyləyir və s., sadəcə “mavi” və ya “yaşıl” yerinə “firuzəyi” və ya ”açıq göy” deyir).<br><br>7.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqları maraqlandırmaq və müxtəlif söz və ifadələri öyrətmək üçün cürbəcür mövzulara müraciət edirlər.[33]<br><br>7.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar məşğələ zamanı uşaqların daha çox sözdən istifadə edərək fikirlərini aydın və daha geniş şəkildə ifadə etməsi üçün şərait yaradırlar.[34] |

[32] 1.1-ci və 3.1- indikatoru daha yaxşı qiymətləndirmək üçün 4 saatlıq müşahidə zamanı əməkdaşların uşaqlar ilə istifadə etdiyi sözləri qeyd etməyə çalışın. Burada təsviredici (sifət, zərf), hərəkət bildirən (feil, feili sifət), rəng, forma, say bildirən sözlərin, sadəcə məşğələ zamanı deyil, gün ərzində istifadə edilməsinə diqqət yetirilməlidir.

[33] Bu indikatorda BƏLİ yazmaq üçün müşahidəçi qrupda məktəbəqədər təhsil proqramının mövzularından (məs., rəqəmlər, hərflər, həftənin günləri, ilin fəsilləri, meyvə-tərəvəzlər, nəqliyyat, peşələr, ev\meşə heyvanları) fərqli mövzular əhatə olunduğunu görməlidir, məsələn, bunlara aiddir: yaşadığımız məkan (kənd, şəhər, ölkə) və bu adların mənası və tarixi; sevdiyimiz kitablar; valideynlərin peşələri, qidaların faydası və s. Əməkdaşların seçdiyi mövzular (uşaqların təşəbbüs göstərdiyi mövzular da ola bilər) uşaqların bilik bazasının genişlənməsinə və dünyagörüşlərinin formalaşmasına xidmət etməli, onlar üçün yeni təcrübələr yaratmalı və söz ehtiyatlarını zənginləşdirməlidir.

[34] Burada belə hallar nəzərdə tutulur: məs., uşaq oyun zamanı deyir: “mənim yük maşınım var”. Tərbiyəçi-müəllim burada bir neçə cümlə ilə fikir və ifadələr əlavə edir: Bəli, bu yük maşınıdır. Bu maşın yükləri kuzov hissəsində daşıyır, yükləri boşaltmaq üçün yük maşınının kuzov hissəsi qalxmalı və yük oradan yerə tökülməlidir” və ya: “Yük maşınları

| | | | |
|---|---|---|---|
| oynadıqları oyun haqqında suallar verilmir. | | | |
| *1–3 yaş arası uşaqlar üçün*[35] | | | |
| 1.1. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqlarla ünsiyyət zamanı konkret əşyaların adları, isimlərin yerinə əvəzliklərdən (bu, o və s.), hərəkəti təsdiq və ya inkar etmək üçün bəli, xeyr bunun kimi az və qısa sözlərdən istifadə edirlər.<br><br>1.2. Tərbiyəçi-müəllim və digər əməkdaşların öyrətdikləri sözlər uşaqların real həyat təcrübələrinə uyğun deyil (məs.: məşğələ zamanı | 3.1. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqlarla söhbət zamanı əşya, məkan, insanların hərəkətlərini bildirən söz və ifadələrdən istifadə edir və bunlar uşaqların hazırkı fəaliyyətinə aid edilir (bura otaqdır; o böyük və işıqlıdır; biz həyətə gedirik, orada ağaclar və kollar var; biz indi yemək yeyəcəyik – sıyıq, çörək, kərə yağı; biz indi topla oynayacağıq; bu top böyükdür; bu top balacadır və s.) | 5.1.Tərbiyçi-müəllim və digər əməkdaşlar tez-tez uşaqların hal-hazırda etdiklərini adlandırır və müxtəlif nitq hissələrinə aid olan (isim, sifət, zərf və feil) sözlərdən istifadə edirlər.[36]<br><br>5.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlar sözləri bir neçə dəfə təkrar edirlər (qidalanma zamanı *şüşə* sözü təkrarlanır, bezlərin dəyişdirilməsi zamanı *nəmdir, qurudur, təmizdir* sözləri təkrarlanır). | 7.1. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqlarla söhbət zamanı müxtəlif nitq hissələrinə aid olan (əvəzlik, zərf, isim) təsviredici, hərəkət bildirən sözlərdən istifadə edirlər. Bu sözlər vasitəsilə uşaqlarə hiss, dad, müxtəlif əşyalar barədə danışır, bəzən sözlərin sinonimlərindən də istifadə edirlər (nəm/yaş, çirkli/kirli, dadlıdır/ləzzətlidir və s.). Hansısa bir sözü müxtəlif kontekstlərdə istifadə edirlər |

şəhər küçələrində tez-tez görünmür, onları yalnız onlara aid yerlərdə görmək olar. Yük maşınları çox ağır və müxtəlif ölçüdə olur. Bilirsiniz, bəzi yük maşınlarında sürücülər üçün yatmağa yer də olur, çünki onlar uzun məsafələrə sürür və dincəlməlidirlər".

[35] Burada ən vacib indikator Tərbiyəçi-müəllim və digər əməkdaşlartərbiyəçi-müəllimlərin uşaqlar uşaqlara daima yaxın olması və onların nə ilə məşğul olduqlarını nəzarətdə saxlamasıdır. Bu ən çox hələ yeriməyən uşaqlara aiddir.

[36] Bu indikatora BƏLİ yazmaq üçün müşahidəçi özü müşahidə aparmadan uşaqların yedikləri yeməklər və oynadıqları oyunlar barədə qənatə gəlməlidir, yəni müşahidəçi tərbiyəçi-müəllim və digər əməkdaşların söhbətlərinə qulaq asaraq bilir ki, uşaqlar nə yeyir, nə ilə oynayır, bezlərin/alt paltarlarının dəyişdirilməsi zamanı nə baş verir.

| | | | |
|---|---|---|---|
| həftənin günləri öyrədilir, amma gündəlik söhbətlərdə onlar qeyd olunmur, havanı təsvir edən sözlər öyrədilir, lakin həyətdə gəzinti zamanı hava haqqında danışılmır).<br><br>1.3. Qrup otağında nümayişetdirici materiallar var, amma uşaqlarla söhbət zamanı Tərbiyəçi-müəllim və digər əməkdaşlar onlardan istifadə etmirlər. | 3.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqlarin yaşına uyğun söhbətlər aparır, uşaqlar onlarla gördükləri, eşitdikləri barədə danışırlar. Abstrakt simvollardan və sözlərdən az istifadə edirlər.<br><br>3.3. Qrup otağında olan materiallar haqqında uşaqlarla söhbət edilir, məsələn, uşağın baxdığı oyuncağın, yediyi yeməklərin adı çəkilir və tərkibi haqqında məlumat verilir. | 5.3. Söhbətlər, əsasən, hazırda baş verənlər barədə edilir, lakin keçmiş və gələcək zamana aid bəzi söhbətlər də uşaqların söz ehtiyatını artırmaq üçün çox sadə şəkildə aparılır, məsələn, hansısa tanınmış insanlar keçmişdə nə edirdi, uşaqlar dünən həyətdə nə oynayırdı, bir neçə saatdan sonra ailə üzvlərindən kim gəlib uşağını evə aparacaq və s.<br><br>5.4. Tərbiyəçi-müəllim və digər əməkdaşlar yeni sözləri müqayisə edərək uşaqlarə öyrədirlər, məsələn, sənin köynəyin ağ rəngdədir, mənim də köynəyim ağdır, sən tez-tez yeriyirsən, mən isə yavaş-yavaş, bu top böyükdür, bu isə balaca və s. | (isti hava, isti su, quru köynək, quru masa və s.)<br><br>7.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlar bəzən sözlərin mənasını izah edirlər, məsələn, siçan çox kiçik bir heyvandır, ora-bura qaçır və pi-pi-pi kimi səslər çıxarır, yağış buludlardan damcılayan sudur, biz onun altında islanırıq, bu üçbucaqdır, onun üç bucağı var və s.<br><br>7.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqlar üçün yeni oyuncaqlar və digər materiallar əlavə edirlər (şəkillər, uşaqların fotoları, fəsillərə aid nümayişetdirici materiallar və s.) |
| **13. Uşaqların ünsiyyət yaratmağa və nitqdən istifadə etməyə həvəsləndirilməsi səviyyəsi** | | | |
| *3-6 yaş arası uşaqlar üçün* | | | |
| 1.1. Tərbiyəçi-müəllim və digər əməkdaşların verdiyi suallar daha çox qısa HƏ/YOX və ya konkret cavabları tələb edir (bu nə rəngdir? bunun forması nədir? bu hansı rəqəmdir?) | 3.1. Tərbiyəçi-müəllim və digər əməkdaşlar bəzən situasiyaya görə uşaqlara suallar verirlər (Sən bu pendiri bəyəndin? Sən yeni ayaqqabını haradan | 5.1. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqlara onları maraqlandıran və | 7.1. Tərbiyəçi-müəllim və digər əməkdaşların uşaqlara verdikləri suallar uzun cavablar tələb edir. Suallar “necə...”, “əgər belə olsaydı...”, “niyə” sözlər ilə başlayır. |

| | | | |
|---|---|---|---|
| 1.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqların dediklərinə fikir vermir və ya uyğun olmayan/mənfi reaksiya verir.[37]<br><br>1.3. Uşaqlarla əməkdaşlar arasında çox az ünsiyyət qurulur (yalnız tərbiyəçi-müəllimin suallarına cavab verilir, ancaq yaxşı cavab verən uşaqla ünsiyyət qurulur və s.)<br><br>1.4. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqları ünsiyyət qurmağa həvəsləndirmir (özləri çox az danışır, mahnılar | aldın? Bu şəkildə nə görürsən? və s.)<br><br>3.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqların müraciətinə pozitiv və neytral cavab verməyə cəhd edirlər (yəni çağırıldığında uşağa yaxınlaşır, amma gülümsəmir, qulaq asmaq üçün uşağa doğru əyilmir və ya uzaqdan “bəli, eşidirəm” deyir).<br><br>3.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqları ünsiyyət qurmağa həvəsləndirirlər.[38]<br><br>3.4. Bəzi uşaqların ünsiyyət qurmaqda çətinlik çəkdiklərini | cavablandırmaq istədikləri sualları verirlər. [39]<br><br>5.2. Sərbəst oyun zamanı uşaqlar və tərbiyəçi-müəllimlər arasında uzun söhbətlər olur. (*Bu indikatora* ***BƏLİ*** *yazılması üçün 35-ci izahata baxın)*<br><br>5.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqlar ilə pozitiv ünsiyyət qururlar (uşaqlara müraciət etdikdə, gülümsəyir, dayanır, ona qarşı əyilir, uşağa fikrini izah etməyə sözlər təklif edərək kömək edir, uşaqların suallarına həm verbal, həm qeyri-verbal cavab verməyə çalışır). [40] | 7.2. Böyük motor bacarıqlarını inkişaf etdirən oyunlar və gündəlik qayğı rejimi zamanı əməkdaşlar və uşaqlar arasında daim ünsiyyət baş verir.<br><br>7.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar və uşaqlar arasında söhbətlər məşğələlərlə məhdudlaşmır (uşaqlarla müxtəlif mövzular haqqında söhbət edilir: ailə üzvləri, icmada baş verənlər, insanın hissləri haqqında və digər bağça mövzularından kənar söhbətlər). [41] |

[37] Müşahidəçi nəyə fikir verməlidir: uşaq əməkdaşların birinə müraciət etdiyində, əməkdaş necə cavab verir: maraq və diqqət göstərir, yaxınlaşıb, uşağa baxıb gülümsəyir. Bunları edərək, əməkdaş uşağı ünsiyyəti davam etməyə həvəsləndirir. Bunların yerinə qısa “mən sənə dedim”, “otur/get yerinə”, “bu sualı neçə dəfə vermək olar”, “axı mən dedim, sən niyə qulaq asmadın” kimi yanaşmalar müşahidə edilirsə, 1.2- indikatora BƏLİ yazılır.

[38] Ünsiyyətin qurulmasına BƏLİ yazılması üçün bunları görmək lazımdır: uşaq və ya bir neçə uşaq tərbiyəçi-müəllim ilə danışır, təşəbbüs uşaqdan və ya tərbiyəçi-müəllimdən gələ bilər, əsas odur ki, söhbət müəyyən müddət davam etsin və fikir mübadiləsi olsun, sadəcə sual-cavab deyil, həm uşaq(lar), həm tərbiyəçi-müəllim öz fikrini və hisslərini deyir, yəni dialoq baş verir.

[39] Suallara cavab uzun da ola bilər, qısa da. Əsas odur ki, uşaq suala maraqla və həvəslə qulaq asır və cavabı düşünərək verir.

[40] Hər bir halda, eyni yaş qruplarında uşaqların danışmaq qabiliyyəti fərqli olur. Müşahidə zamanı uşaqların fərqli danışıq qabiliyyətinə və tərbiyəçi-müəllimlərin bunları nə dəcərədə fərqləndirməsinə fikir verilməlidir. Əgər qrupda daha yaxşı danışan və fikirlərini izah edən uşaq varsa, müşahidə edin: tərbiyəçi-müəllim ona daha kompleks sözlər işlətməyi təklif edir, daha uzun cümlələr qurmağa kömək edir; əgər daha az danışan uşaq varsa, həmin uşağa sözləri seçməyə, cümlələri qurmağa kömək edir. Bunlar hamısı məşğələ zamanı deyil, fasilələrdə və sərbəst oyun zamanı baş verirsə, uşaqların fərdi ehtiycalarının ödənilməsinə daha yaxşı şərait yaradılır.

[41] Burada “TƏTBİQ EDİLMİR” qiyməti vermək məsləhət görülür. Belə ki, bunların baş tutmayacağını aydın görə bilərik, hətta bunlar artıq sayıla bilər.

| | | | |
|---|---|---|---|
| oxumur, rənglər haqqında danışmırlar və s.)<br><br>1.5. Qrupdakı sosial mühit ünsiyyət qurmağı təşviq etmir ( “ŞŞŞŞ” səsi və ya “sakit” sözü tez-tez istifadə edilir; tərbiyəçi-müəllim növbə ilə müraciət edirsə, danışmaq tələbi qoyulur, “böyük danışanda, uşaqlar yalnız qulaq asır”, “mən danışmağa icazə vermirəm” və s., uşağa müraciət edildikdə, ondan cavab gözlənilmir və ya tərbiyəçi-müəllim özü cavablandırır). | nəzərə alaraq, onlara dəstək göstərilir (daha az danışan uşağa müraciət olunur, uşağın cavab verməsi gözlənilir, uşağa ailədə danışılan dildə müraciət olunur).<br><br>3.5. Qrupda rahat atmosfer var, uşaqlar bir-birilə və tərbiyəçi-müəllimlə rahat ünsiyyət qura bilirlər. | 5.4. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqları bir-birilə danışmağa həvəsləndirirlər (məs.: oyuncağa görə dalaşan uşaqları danışaraq məsələni həll etməyə həvəsləndirir; uşaqlara bir-birinə təşəkkür etməyi, üzr istəməyi, xahiş etməyi öyrədirlər; uşaqları söhbəti başlamağa həvəsləndirir, hər kəsi söhbətdə iştirak etməyə dəvət edirlər). | |
| *1-3 yaş arası uşaqlar üçün* | | | |
| 1.1. Uşaqlar ağlayanda və ya aqressivləşəndə tərbiyəçi-müəllim və digər əməkdaşlar dərhal reaksiya vermir və ya biganə qalırlar (başları başqa işlərə qarışıb, olanları eşitmir/görmür və ya uşağın vəziyyətinə ciddi yanaşmırlar, olduğu kimi qəbul edirlər) | 3.1. Əsəbi və ya əhvalı pis olan uşaqlara kifayət qədər diqqət yetirilir (ağlayan uşaq əvvəl verbal, sonra hərəkətlərlə sakitləşdirilir), lakin hal-əhvalını daha az bildirən uşaqları çox da diqqət yetirilmir.<br><br>3.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqların hərəkət və qeyri-verbal ünsiyyətinə | 5.1. Uşaqların ağlamasına və ya aqressiv vəziyyətinə çevik və həlledici reaksiya verilir.<br><br>5.2. Uşaqlarla ünsiyyət müsbət və xoş tonda aparılır, uşaqlar qorxmur və çəkinmədən böyüklərə müraciət edə bilirlər.<br><br>5.3. Uşaqların təşəbbüsləri verbal və qeyri-verbal dəstəklənir (gülümsəyərək, | 7.1. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqların hal-əhvalına həssas yanaşır: fəaliyyət zamanı uşaqlar darıxırsa, fəaliyyəti dəyişir və ya oyuncaqlar əlavə edir, yemək zamanı uşağın çeynəməsi və udmasını səbirlə gözləyir, oturmaqdan bezən uşağa hərəkətli oyun təkilf edir. |

| | | | |
|---|---|---|---|
| 1.2. Uşaqların hazırkı əhvali-ruhiyyəsi tərbiyəçi-müəllimlərə və d maraqlı deyil. Uşaqlar ağlamadan, qışqırmadan bir şey istədikdə, kimsə onlara diqqət yetirmir (uşaq oyuncağa əlini uzadıb ona çata bilmirsə, oyuncağı ona vermirlər; tək qalıb başqaları ilə oynamayan uşaqni qrupa cəlb etmirlər və s.)<br><br>1.3. Uşaqların verbal və qeyri-verbal müraciətinə mənfi reaksiya verilir (uşaqlar onlar danlanır, oyun zamanı deyil deyə, oyuncaq əllərindən kobud şəkildə alınır, məqsədini onlara başa salmadan oyuncağın yeri dəyişdirilir və s.) | diqqətlə yanaşır, istədiklərini anlayaraq, verməyə çalışırlar (oyuncağa əlini uzadan uşağa oyuncağı verirlər).<br><br>3.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar qrupda müsbət və xoş mühit yaratmağa çalışır, gülümsəyərək danışır, səslərini yüksəltmir, uşaqlara ciddi qaydalar qoymur, onlara qarşı mülayimdirlər. | başla və əl ilə dəstəkləyici işarələr verərək).<br><br>5.4. Uşaq hər hansı sözü demək istədikdə, Tərbiyəçi-müəllim və digər əməkdaşlar ona kömək edir, məsələn, əşyanı göstərərək onun adını deyir, hərəkətini adlandırır, oyuncağı adlandırır, yeməyin adını deyir. | 7.2. Uşaqlarla söhbət edərkən Tərbiyəçi-müəllim və digər əməkdaşlar yeni söz və ifadələr əlavə etməyə çalışırlar. Əgər uşaqnin biri oyuncaq maşını götürürsə, tərbiyəçi deyir: – Aha, sənin maşının balacadır, bax, o mavi rəngdədir və onun 4 təkəri var. Əgər uşaq banan yemək istəyirsə, tərbiyəçi-müəllim ona deyir: – Hə, banan yemək istəyirsən, əvvəl onun sarı qabığını təmizləyək və s. |
| **14. Uşaqlarla söhbət**<br>*Yalnız 1-3 yaş arası uşaqlar üçün* | | | |
| 1.1. Uşaqlarla söhbət edilmir, tərbiyəçi-müəllim və digər əməkdaşlar əsasən bir-birilə danışırlar.<br><br>1.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlaruşaqlarla yüksək səslə, sərt, tənqidi tonda və ya | 3.1.Uşaqlarla çox az söhbət edilir, əsasən, təlimatlar verilir.<br><br>3.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqlarla xoş ünsiyyət qurmağa çalışır, amma onlara adla müraciət etmirlər (mənim balam, oğlum, | 5.1. Uşaqlarla xoş ünsiyyət qurulur, hər bir uşağa adı ilə müraciət olunur.<br><br>5.2.Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqlarla məşğələdənkənar vaxtlarda da ünsiyyət qururlar, məsələn, tualetə aparanda, bezlər | 7.1. Uşaqlarla əsasən, fərdi söhbətlər aparılır, adı ilə müraciət edilir, qrupda hər uşağa fərdi yanaşılır.<br><br>7.2. Uşaqlarla tez-tez verbal oyunlar keçirilir. |

| | | | |
|---|---|---|---|
| qorxuducu ifadələrlə[42] danışırlar.<br><br>1.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqların maraq və ehtiyaclarına həssas yanaşmırlar: uşaq ilə danışırlar, amma diqqətini cəlb etməyə çalışmırlar, oynayan uşaqları fəaliyyətdən uzaqlaşdırır, onların verbal və qeyri-verbal ünsiyyətinə diqqət yetirmirlər.<br><br>1.4. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqlara qrup şəklində müraciət edir, fərdi yanaşmır, oyuncaqları qrupa paylayır, müəyyən təlimatları ümumi qrupa verir, uşaqların eşidib anladığını yoxlamırlar. | qızım kimi ifadələrdən istifadə edilir).<br><br>3.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqlarə həssas yanaşmağa çalışırlar (yorğun görünən uşaqyə qarşı mülayimdirlər, danışmaq istəyən uşaq ilə danışırlar).<br><br>3.4. Tərbiyəçi-müəllim və digər əməkdaşlar bəzən uşaqlarla verbal və qeyri-verbal oynamağa çalışırlar (barmaqlarla fiqurlar düzəldir, müxtəlif səslərlə diqqətlərini çəkir, yanıltmaclar deyirlər).5 | dəyişiləndə, yemək veriləndə və s. | |
| **15. Tərbiyəçi-müəllim və digər əməkdaşların uşaqları kitablardan istifadə etməyə həvəsləndirməsi səviyyəsi** | | | |
| *3–6 yaş arası uşaqlar üçün* | | | |
| 1.1. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqlarla söhbət | 3.1. Tərbiyəçi-müəllim və digər əməkdaşlar müşahidələr | 5.1. Tərbiyəçi-müəllim və digər əməkdaşlar müşahidə zamanı | 7.1. Qrupda keçirilən mövzuya/öyrədilən bacarığa |

[42] Bura müxtəlif elarası deyilən ifadələr daxildir – “xoxan gəlir”, “yatın, yoxsa həkimə deyərəm, gəlib iynə vurar”, “polis gəlib sizi aparacaq” və s. kimi ifadələr.

| | | | |
|---|---|---|---|
| zamanı uşaq kitablarından istifadə etmirlər.[43]<br><br>1.2. "Kitab vaxtı" uşaqlar üçün xoş deyil (uşaqlar başqa fəaliyyətdən məcburən ayrılaraq dinləməyə sövq edilir, onlar oxunan kitabı görə bilmir, kitab vaxtı onlara cəza kimi təqdim edilir).[44]<br><br>1.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar kitabı maraqla oxumur, onlara bu təkrarlanan fəaliyyət kimi görünür.<br><br>1.4. Oxunan kitabın məzmunu uşaqlara uyğun deyil (məzmun qorxuludur, pis vərdişlər aşılayır, çox uzundur və s.) | zamanı ən azı bir dəfə uşaqlara kitab oxuyurlar.<br><br>3.2. "Kitab vaxtı" uşaqlar üçün xoş şəraitdə keçirilir: uşaqlar oxunan kitabı görə bilir, sərbəst oturur, kitab uşaqlara maraqlıdır, məzmun çox uzun deyil, uşaqlar dinləməkdən yorulmur, maraq göstərir, suallar verirlər və s.<br><br>3.3. Uşaqların əksəriyyəti kitab oxunmasına maraqla qulaq asır, bəzən diqqətləri yayına bilər, amma tərbiyəçi-müəllim hekayəni oxumaq tərzi ilə onların diqqətini toplayır. Qrupda yalnız bir uşaq deyil, digərləri də maraqla dinləyirlər. | kitabları bir neçə dəfə oxuyurlar: ya bütün qrupa, ya kiçik qrupa və ya fərdi.<br><br>5.2. Tədris dilini bilməyən uşaqlar üçün spesifik uyğunlaşmalar tətbiq edilir ("Kitab vaxtları", tərcümələr, fərdi məşğələlər və s.) TƏTBİQ EDİLMİR yazıla bilər.<br><br>5.3. Bütün uşaqlar kitab vaxtına cəlb olunmuş kimi görünür, maraq göstərir, sual verirlər.<br><br>5.4. Tərbiyəçi-müəllim və digər əməkdaşlar da kitaba maraq göstərirlər: oxuduğu hekayəni canlandırmağa çalışırlar, bu həm səs tonundan, həm hərəkətlərdən görünür. | aid bir neçə kitab var və əməkdaşlar onları uşaqlara oxuyurlar.<br><br>7.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlar kitabın məzmununu uşaqlarla onlara maraqlı olan tərzdə müzakirə edirlər.<br><br>7.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar kitablara məşğələdən kənar vaxtlarda da müraciət edirlər.<br><br>7.4. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqların suallarına cavab tapmaq üçün kitablara müraciət edir, bununla uşaqlarda kitaba həvəsi təşviq edir və davranışını modelləşdirirlər. |

[43] Əgər 4 saatlıq müşahidələr zamanı əməkdaşların əlində kitab olmasını müşahidə etməmisinizsə, bütün 1-ci indikatorlara BƏLİ, 3-cü, 5-ci və 7-ci indikatorlara isə XEYR yazılmalıdır. Burada hər hansı kitabın başdan axıra qədər oxunmasından söhbət getmir, məşğələ və ya oyun zamanı kitaba baxmağa, kitab oxusu zamanı qulaq asmağa, kitabdakı şəkillərə baxmağa, şəkillər haqqında danışmağa həvəsləndirməkdən söhbət gedir. Ümumiyyətlə, bu alətdə "kitabdan istifadə etmək" dedikdə, kitabdakı şəkilləri göstərmək, hekayəni oxumaq, şəkillərə əsasən sərbəst şəkildə qısa hekayə qurmaq, uşaqların hekayədən danışmasına qulaq asmaq nəzərdə tutulur.
"Kitabı oxumaq" isə əməkdaşların hər hansı kitabı götürüb, uşaqlara onun məzmununu ucadan səsləndirərək oxuması deməkdir.

[44] "Kitab vaxtı" əməkdaşların kitabla ünsiyyət yaratmaq məqsədilə uşaqlar üçün seçdiyi vaxtdır və məşğələ, sərbəst oyun və ya digər vaxtlarda təşkil oluna bilər.

| | | | |
|---|---|---|---|
| | 3.4. Tərbiyəçi-müəllim və digər əməkdaşlar özləri kitaba maraq göstərirlər. | Uşaqların suallarına həvəslə cavab verirlər. | |
| *1-3 yaş arası uşaqlar üçün*[45] | | | |
| 1.1. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaq kitablarından istifadə etmirlər.<br><br>1.2. Qrupda tətbiq olunan “kitab vaxtı”[46] uşaqlar üçün xoş deyil: uşaqlar oxunan hekayəni eşidə, kitabdakı şəkilləri görə bilmir, onların reaksiyası nadinclik kimi dəyərləndirilir və cəzalandırılır.<br><br>1.3. “Kitab vaxtı” səmərəsiz keçir: hekayə monoton səslə oxunur, çox uzundur, şəkilləri yoxdur və ya şəkillər uşaqlara göstərilmir, yeni sözlərin və ifadələrin mənası izah olunmur.<br><br>1.4. Oxu zamanı tərbiyəçi-müəllim fəallıq göstərən və | 3.1. Tərbiyəçi-müəllim və digər əməkdaşlar 1 dəfə kitabdan istifadə edirlər: ucadan oxuyur və ya şəkilləri göstərirlər.<br><br>3.2. Seçilən kitab uşaqlar üçün maraqlıdır, şəkillər diqqətlərini cəlb edir. ”Kitab vaxtı” xoş və rahat atmosferdə keçir, uşaqların fikirlərinə yer verilir, onların fəal dinləməsi dəstəklənir.<br><br>3.3. Uşaqlar kitabdakı şəkilləri görə bilirlər.[47]<br><br>3.4. Tərbiyəçi-müəllim hekayəni oxuduqca məzmuna uyğun mimika və emosiyalar göstərir: gülümsəyir, sevinir və ya kədərlənir, səsini yüksəldir | 5.1. Hekayə fərdi olaraq bir uşağa və ya kiçik qrupa (1-3 uşağa) oxunur.<br><br>5.2. “Kitab vaxtı” çox maraqlı və cəlbedici keçir: Tərbiyəçi-müəllim və digər əməkdaşlar hekayələri mimika, jest və emosiyalar ilə oxuyur, uyğun yerlərdə heyvanların və quşların səslərini çıxarır, onların hərəkətlərini imitasiya edirlər; uşaqların reaksiyalarına müsbət cavab verilir, suallar dərhal cavablandırılır.<br><br>5.3. ”Kitab vaxtı” hekayənin oxunması zamanı bir neçə | 7.1. 4 saatlıq müşahidə zamanı kitablardan bir neçə dəfə istifadə edilir.<br><br>7.2. Oxu prosesi zamanı Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqlari müxtəlif yollarla cəlb etməyə çalışır: kitabı səhifələmək, şəkildəki obrazlara yaxından baxmaq, toxunmaq, gördükləri heyvanlara uyğun səs çıxartmaq üçün şərait yaradırlar.<br><br>7.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar oxu zamanı sözləri oxuyarkən barmaqla hərflərə işarə edir və uşaqlarə göstərirlər. |

[45] “Kitablardan istifadə” mütləq kitabdakı mətnin oxunmasını tələb etmir. İstifadə kitabdakı şəkillərdən danışmaq, hekayəni öz sözləri ilə nəql etmək deməkdir. “Kitabı oxumaq” kitabdakı mətni əvvəldən sona qədər oxumaqdır. Uşaqların kitaba marağı itirsə, oxumağı dayandırmaq olar.

[46] “Kitab vaxtı” qrupda kitablar ilə məşğul olunan müddətdir: şəkillərə baxmaq, hekayələri oxumaq. Bu həm bütün qrup, həm kiçik qrup, həm də bir uşaqla ola bilər. Müşahidəçi kitabların istifadəsi ilə bağlı indikatorlara qiymət vermək üçün kitablarla bağlı bütün fəaliyyətləri 4 saat ərzində izləməli və qeyd eləməlidir.

[47] Bunu təmin etmək üçün tərbiyəçi-müəllim bir yerdə oturmamalı, otağı gəzməli, hər uşağa yaxınlaşmalı, şəkilləri göstərməlidir. Başqa format belə ola bilər: tərbiyəçi-müəllim dairənin mərkəzində oturur, uşaqlar isə onun ətrafına yığışır və hekayəni dinləyirlər.

| | | | |
|---|---|---|---|
| yaxın oturan 1-2 uşaqla ünsiyyət qurur, digər uşaqları prosesə cəlb etmək üçün səy göstərmir. | və ya azaldır. Uşaqların diqqətini çəkmək üçün özü hekayəyə maraq göstərir. | uşağa fərqli fəaliyyətlə məşğul olmağa icazə verilir[48].<br><br>5.4. Tərbiyəçi-müəllim həm hekayəni oxuyur, həm də kitabdakı şəkillərdən danışır, onları təsvir edir və hekayənin süjeti ilə əlaqələndirir. Tərbiyəçi-müəllim hekayənin təkcə mətninin deyil, həm də şəkillərinin danışdığını vurğulayır.<br><br>5.5. Tərbiyəçi-müəllim və digər əməkdaşlar özləri hekayələrə və kitablara qarşı müsbət münasibət göstərir, kitabların sevinclə oxunması, maraqla qarşılanmasını modelləşdirirlər. | "TƏTBİQ EDİLMİR" yazıla bilər. |
| **16. Uşaqlar arasında kitablara marağın təşviqi** | | | |
| *3–6 yaş arası uşaqlar üçün* | | | |

[48] Uşağın marağı itibsə, alternativ fəaliyyətlə məşğul olmasına icazə verilə bilər, amma qrupda ¾ uşaq gedib fərqli fəaliyyətlə məşğul olmaq istəyirsə, 1.3. İndikatoruna qayıdıb dəyərləndirmək lazımdır.

| | | | |
|---|---|---|---|
| 1.1. Qrup otağındakı kitablar uşaqların sayından azdır[49]<br><br>1.2. Uşaqlara kitabları fəaliyyətlərarası vaxtı doldurmaq üçün verirlər, uşaqlar kitablara maraq göstərmirlər.<br><br>1.3. Qrupda olan kitablar uşaqların yaş səviyyəsinə uyğun deyil: şəkillər böyüklər üçün olan mövzulara aiddir, qorxu yaradan və ya zorakı mesajlar verir, pis vərdişləri aşılayan məzmunu əks etdirir.<br><br>1.4. Müşahidə zamanı kitabların hansı müddətdə istifadə olunduğu aydın deyil, tərbiyəçi-müəllimin planında bu məqam yer almayıb. | 3.1. Qrup otağıdakı kitablar ən az uşaqların sayı qədərdir və kitablar 4 saatlıq müşahidə zamanı ən az 20 dəqiqə ərzində uşaqlara baxmaq üçün əlçatandır.<br><br>3.2. Qrupda bədii uşaq ədəbiyyatı, uşaq ensiklopediyası və məşğələ vəsaiti tipli kitablar mövcuddur.<br><br>3.3. Kitablar uşaqların yaş səviyyəsinə uyğundur və normal vəziyyətdədir.<br><br>3.4. Kitablar uşaqların əli çatan rəflərdə yerləşdirilmişdir və kitabı götürəndən sonra oturub ona baxmaq üçün yerlər ayrılıb. | 5.1. Uşaqlar 4 saatlıq müşahidə ərzində minimum 1 saat bir çox kitablarla məşğul olurlar.[50]<br><br>5.2. Uşaqlar kitablara maraq göstərirlər, məs.: sərbəst oyun zamanı “Kitab guşəsində” kitablara, elm guşəsində uşaq ensiklopediyalarına baxırlar.<br><br>5.3. Kitablar otaqda onlar üçün ayrılmış yerdə saxlanılır: otaqda “Kitab guşəsi” var, oturub kitablara baxmaq üçün rahat masa və oturacaqlar var, kitablar uşaqların əli çatan rəflərdə yerləşdirilib.<br><br>5.4. Əməkdaşlar uşaqların kitablara olan marağını dəstəkləyirlər (verbal və qeyri-verbal tərifləyir, kitab haqqında onlara suallar verir, öz təəssüratları ilə bölüşürlər).[51] | 7.1. Qrupda həm janr, həm də mövzu baxımından geniş çeşiddə kitablar var.[52]<br><br>7.2. Məşğələ zamanı keçirilən fəaliyyətlərə aid 5 kitab mövcuddur (*mövzular barədə* ***44 N-li qeydə*** *baxın*) |

[49] Burada yalnız yaxşı vəziyyətdə (bütün səhifələri və üst qabığı təmiz və səliqəli) olan kitabların sayı nəzərə alınır.
[50] “Bir çox” 10 uşağa 20 kitab, 15 uşağa 30 kitabın olması deməkdir.
[51] 5.1-ci, 5.2-ci, 5.3-cü və 5.4-cü indikatorlar üzrə fəaliyyətləri qiymətləndirmək üçün uşaqların bütün qrupla məşğələ zamanı kitablarla məşğul olmasını müşahidə etmək kifayət deyil, burada məhz uşaqların fərdi olaraq, öz təşəbbüsləri ilə kitaba maraq göstərməsi, kitabları seçməsi, təklikdə və ya digər uşaqlarla birlikdə kitablara baxması nəzərdə tutulur.
[52] Kitabların həm janr, həm mövzu baxımından geniş çeşiddə olmasını müəyyən etmək üçün bütün kitablara bir-bir baxmaq və oxumaq lazım deyil. Kitabların adlarına və bir neçə səhifəsinə baxıb qərar vermək olar: kitablar insanlar, insanların emosiyaları və hissləri, peşələri, hobbiləri və maraqları, bacarıqları, özünə

| *1-3 yaş arası uşaqlar üçün* | | | |
|---|---|---|---|
| 1.1. Kitablarla iş aparılmır.<br><br>1.2. Qrup otağında olan kitablar uşaqların yaş səviyyəsinə uyğun deyil[53]<br><br>1.3. Kitab oxumaq məcburiyyət və ya cəza kimi tətbiq olunur: dəcəllik edən uşaqları oturdub əllərinə kitab verirlər, məşğələdə və ya oyun zamanı dəcəllik edən uşaqları qrupdan ayırıb, onun üçün kitab oxuyurlar, məşğələ/oyun və ya digər gündəlik fəaliyyətlər arasında kitab oxunur, uşaqlar isə maraqla qarşılamırlar. | 3.1. Müşahidə zamanı uşaqlar 3 fərqli kitabdan istifadə edə bilərlər.<br><br>3.2. Otaqda olan kitablar uşaqlar qrupunda istifadəyə uyğundur.<br><br>3.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqların sərbəst şəkildə kitabları götürüb baxmasına müsbət yanaşırlar: kitabı götürən uşağa dəstəkləyici və həvəsləndirici sözlərlə müraciət edir, suallar verir, götürdükləri kitaba baxıb, maraqlı olduğunu söyləyirlər.[54]<br><br>“TƏTBİQ EDİLMİR” yazıla bilər. | 5.1. Qrup otağında 10-dan çox kitab var və uşaqlar onları götürüb baxa bilərlər.[55]<br><br>5.2. Kitablar uşaqların əlləri çata biləcək yerlərdə saxlanılır, rəflərə səliqəli şəkildə düzülüb.<br><br>5.3. Sərbəst kitabı götürüb baxan uşağa dəstəkləyici sözlər deyilir, Tərbiyəçi-müəllim və digər əməkdaşlar ona müsbət şərhlər verir, növbəti dəfə yeni kitaba baxmağı təklif edirlər. | 7.1 15-dən çox kitab uşaqların istifadəsinə verilir.<br><br>7.2. Kitabı sərbəst şəkildə götürən uşaqla dəstəkləyici ünsiyyət qurulur: hekayələr oxunur, şəkillər haqqında söhbət edilir, fikirləri soruşulur, onun öz əlinə verilir, düzgün şəkildə vərəqləməsi öyrədilir və s.<br><br>“TƏTBİQ EDİLMİR” yazıla bilər.<br><br>7.3. Qrupdakı kitablar müxtəlif mövzuları əhatə edir: ilin fəsilləri, ev heyvanları, vəhşi heyvanlar, quşlar və s. barədə hekayələr. |

qulluq vərdişləri, səyahətlər və gündəlik məşğuliyyətlər haqqında olmalı, elmi məlumatları (təbii hadisələr, canlı və cansız aləm) əks etdirməli, insanların mədəni müxtəlifliyi haqqında, qadınlar və kişilər, qızlar və oğlanların bacarıq və maraqları barədə məlumatları əks etdirməlidir. Bütün bunları müəyyən etmək üçün müşahidəçinin sadəcə olaraq kitabların üzərinə nəzər salması kifayətdir.

[53] Uşaqlar üçün “uyğun olan kitab” (1.2. və 3.2. indikatorunda bu ifadə işlənir) aşağıdakı şəkildədir: yaxşı vəziyyətdədir, bütün səhifələri var, üz qabığı var, təmizdir, uşaqlar uşaqlar kitabın səhifələrini çevirə bilir, obrazları əks etdirən çoxlu böyük şəkilləri var, yalnız mətndən ibarət deyil, şəkillərdə qorxunc və ya böyüklərə aid obrazlar əks olunmur, mənfi mesajlar verilmir (məsələn, dalaşan uşaqlar, əllərində daş, kəsici alətlər və ya silah olan insanlar). Bu indikatora qiymət vermək üçün kitablara bir-bir baxmaq lazım deyil, müşahidə zamanı uşaqlara verilən kitabları, tərbiyəçi-müəllimin oxuduğu kitabı və ya otağın müxtəlif yerlərində olan kitabları nəzərdən keçirərək, qiymət vermək olar.

[54] Məsələn, “Baxım, sən hansı kitabı götürdün? Hə, bax burada nə gözəl şəkillər var”; “Bu kitabdakı hekayəni oxumuşuq, yadındadır? Cəsur oğlan haqqında bəhs edir”.

[55] Kitabların rəflərdə olması qiymət verilməsi üçün kifayət deyil, mütləq müşahidə zamanı uşaqların və Tərbiyəçi-müəllim və digər əməkdaşlar tərbiyəçi-müəllimlərin kitablardan istifadə etməsi qeydə alınmalıdır.

| SAHƏ 4: TƏDRİS FƏALİYYƏTLƏRİ | | | |
|---|---|---|---|
| **17. Kiçik motor bacarıqlarının inkişaf etdirilməsi**<br>*1–6 yaş arası uşaqlar üçün* | | | |
| 1.1. Müşahidə zamanı kiçik motorikanın inkişafı üçün 3 növdən az tədris materialı istifadə edilir.[56]<br><br>1.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqları oyun zamanı sadəcə izləyir, onların oyunlarına qarışmırlar.<br><br>1.3. Kiçik motor bacarıqlarını inkişaf etdirmək üçün resurslar və materiallar qırıqdır və ya hissələri çatışmır. | 3.1. Müşahidə olunan məşğələ zamanı uşaqlar azı 8 fərqli kiçik motor bacarıqlarının inkşafına aid tədris materialı ilə oynaya bilərlər. Oyuncaqlar və materiallar yaxşı vəziyyətdədir, bütün hissələri yerindədir.<br><br>3.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqlara materialları paylamaqda və bölüşdürməkdə kömək edirlər. Məşğələdən sonra uşaqlar materialları yerinə qoyurlar.[57]<br><br>3.3. Bütün materiallar rahat və əlçatan yerdə saxlanılır (uşaqlar materialları sərbəst götürə bilirlər, hər material özünə aid, üstündə adı yazılan qutuda saxlanılır, materiallar olan guşədə masa və oturacaqlar var). | 5.1. Kiçik motorikanın inkişafı üçün müxtəlif çeşidli materiallardan istifadə edilir: bir-birinə bağlanan kublar, pazllar, qələmlər, karandaşlar, manipulyativ oyuncaqlar (domino, rəqəmlər, çubuqlar, müstəvi və fəza fiqurları, üstündə yazısı olan plastik şüşə qapaqlar, qayçı və s.)<br><br>5.2. Bütün 5.1-ci bənddə qeyd olunan materiallar uşaqlar üçün azı 40 dəqiqə əlçatandır.[58]<br><br>5.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqlar materiallarla işlədiyi zaman onlara forma və rəng haqqında, onlardan nə düzəldə biləcəkləri barədə suallar verirlər. Bəzən oyunda əməkdaşlar özləri də iştirak edirlər. | 7.1. Tərbiyəçi-müəllim və digər əməkdaşlar oyunlarda fəal iştirak edirlər: uşaqların düzəltdikləri barədə suallar verir, hər hansı materialın istifadəsi haqqında soruşur və ya izahatlar verir, uşaqları materialların seçiminə həvəsləndirirlər (bunu 2 uşaqla müşahidə etmək lazımdır).<br><br>7.2. Uşaqların sərbəst seçimini təşviq etmək üçün bütün materiallar işarələnmiş qablarda, əlçatan rəflərə qoyulur.<br><br>7.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqların materiallar ilə oyunu zamanı onlarla danışır, yeni söz və anlayışları izah edir: bir-birinə bağlanan kubları necə istifadə etməli, rəngləri və ya formaları |

[56] Kiçik motorikanın inkişafı (əl motorikası) üçün tədris materialları bunlardır: müxtəlif ölçüdə və formada kublar, kiçik piramidalar, yuva oyuncaqları (matryoşkalar), çeşidləmə üçün müxtəlif formada muncuqlar, iplər, pazllar, parçanın üzərində düymələr, 4–6 yaşlı uşaqlar üçün kiçik ucu şiş olmayan qayçılar, mozaikalar və s. Eyni material, məs, 3 pazl və ya 3 mozaika sayılmır, 3 fərqli material olmalıdır.
[57] Uşaqlar bunu köməksiz özləri edirsə, BƏLİ yazılmalıdır.
[58] 40 dəqiqəni dəqiq qeyd etmək lazımdır.

| | | | |
|---|---|---|---|
| | 3.4. Materiallar müxtəlif çətinlik səviyyəsindədir (böyük və kiçik ölçüdə kublar, sadə və mürəkkəb pazllar, iri və kiçik ölçülü mozaikalar, leqo oyuncaqları). | | necə tutuşdurmalı, birləşdirmək, bölmək nədir (deyirlər və göstərirlər), hərəkət edir, dayanır, üstünə gəlmək, çıxmaq və bunun kimi digər anlayışlar izah olunur. Pazlldan əmələ gələn şəkli/obrazı müzakirə edir, uşaqların düzəltdikləri məhsulun şəklini çəkib üzərinə uşağın adını yazırlar. |
| **18. Təsviri fəaliyyət məşğələləri**<br>*1–6 yaş arası uşaqlar üçün* | | | |
| 1.1.Təsviri fəaliyyət materialları (qələmlər, karandaşlar, boyalar, təbaşirlər, kağız, plastilin, taxta fiqurlar, qayçı, xətkeş, marker və flomasterlər) uşaqlar üçün nadir hallarda əlçatan olur.[59]<br><br>1.2. Təsviri fəaliyyət materialları ilə məşğul olanda uşaqlara verilmiş nümunə/əvvəlcədən hazırlanmış şablon üzrə işləmək tələb olunur, fərdi yanaşma və özünü ifadə etmək dəstəklənmir. | 3.1. Azı 1 rəsm çəkmək üçün material 20 dəqiqə ərzində uşaqlara verilir: təbaşir və ya rəngli karandaşlar dəsti, kağız və ya ağ lövhə ilə markerlər.<br><br>3.2. Uşaqlar istədikləri kimi işləyirlər, onlardan şablona uyğun işləmək tələb olunmur.<br><br>3.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqları sərbəst işləməyə həvəsləndirir, çəkdikləri rəsm barədə suallar verir, maraq göstərir, uşaqların istifadə etdiyi rənglərdən | 5.1. Uşaqlar 40 dəqiqə ərzində azı 3 müxtəlif növ təsviri fəaliyyət materialı ilə işləyirlər.<br><br>5.2. Uşaqlar təsviri fəaliyyət materiallarından öz ideyalarını əks etdirmək üçün istifadə edirlər.<br><br>5.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqlara işləri barədə suallar verir və onların ideyalarını dəstəkləyirlər: Sən bu formanı necə düzəltdin? Bu rəngi niyə seçdin? Hansı | 7.1. Tərbiyəçi-müəllim və digər əməkdaşlar təsviri fəaliyyət materiallarından daha mürəkkəb üsullarla istifadə etməyi uşaqlara öyrədir və ya uşaqlar artıq bunu edə bilirlər (boyaların qarışdırılması, fərqli rəngdə plastilindən və digər materialdan fiqurların hazırlanması, qurğuların yaradılması, kağızlardan fiqurların kəsilməsi və ya müxtəlif firqurların düzəldilməsi). |

[59] “Nadir hallarda” o deməkdir ki, müşahidə zamanı uşaqlar təsviri fəaliyyət materialları ilə məşğul olmadılar, qrupdakı hər uşağa materiallar verilmədi və ya çox qısa müddətə verildi və uşaqlar öz fəaliyyətini bitirə bilmədilər.

| | | | |
|---|---|---|---|
| 1.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqların nümunə üzrə işləməsi üçün onların fəaliyyətinə nəzarət edir, materialları qoruyur və ya onları yığıb yerinə qoymaq üçün uşaqlara yaxınlaşırlar. | danışır, çəkdikləri formaları müzakirə edirlər. | rəngləri qarışdırdın? Şəkildə nəyi təsvir etdin? və s. | 7.2. Təsviri fəaliyyət məşğələsində uşaqların daha əvvəl keçdikləri mövzulara/olduqları yerlərə/ baxdıqları kitablara aid işlər görülür: zooparka getdikləri avtobusu, gördükləri heyvanları, fəsillərdə dəyişən təbiəti çəkir, nənəsi və babası yaşadığı evi düzəldir və s.<br><br>7.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqların çəkdiyi rəsmlərə şərhlər yazmağa çalışırlar. Məs.: “Sən dedin ki, bu sizin evdə yaşayan pişikdir, bax, mən onu bura yazdım, sonra anana göstərərsən bunu!”<br>“Bax, adını yazdım ki, bu rəsmi sənin çəkdiyini hamı bilsin”… |
| **19. Musiqi və ritmik hərəkət**<br>*1–6 yaş arası uşaqlar üçün* | | | |
| 1.1. Uşaqların musiqiyə və ya ritmik hərəkətə cəlb olunması müşahidə edilmir (mahnı oxumurlar, cihaz üzərindən musiqiyə qulaq asmırlar) [60]. | 3.1. Minimum 3 musiqiyə aid material uşaqlara 20 dəqiqə ərzində əlçatan olur: musiqili oyuncaqlar, cihazdan musiqi dinləməsi, sadə musiqi aləti, radio. | 5.1. Müxtəlif musiqi materialları sərbəst oyun zamanı 40 dəqiqə ərzində uşaqlar üçün əlçatandır (müxtəlif oyuncaq, musiqi alətləri, pleyer, radio). | 7.1. Bütün qrupla birlikdə musiqili fəaliyyətdə iştirak etmək istəməyən uşaqlar məcbur edilmir, onlara maraqlı alternativlər təklif olunur.<br>**TƏTBİQ EDİLMİR yazıla bilər.** |

[60] Burada musiqi rəhbərinin keçdiyi musiqi məşğələsi nəzərdə tutulmur. Gün ərzində tərbiyəçi-müəllimlərin keçirdiyi məşğələlər nəzərdə tutulur.

| | | | |
|---|---|---|---|
| 1.2. Musiqidən yüksək səslə bütün məşğələlərdə istifadə olunur. | 3.2. Məşğələlər zamanı musiqi mane olmur.<br><br>3.3. Uşaqlar mahnılar oxuyanda, əməkdaşlar onlarla birlikdə oxuyurlar.<br><br>3.4. Musiqi məşğələsi maraqlı keçir. TƏTBİQ EDİLMİR yazıla bilər. | 5.2. Sərbəst oyun zamanı əməkdaşlar uşaqlarla birlikdə mahnı oxuyur, rəqs edirlər.<br><br>5.3. Uşaqlar ritmik hərəkətə/rəqsə cəlb olunurlar.<br><br>5.4. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqları ritmik hərəkətlərdə/rəqsdə iştirak etməyə həvəsləndirirlər (əl çalır, rəqs edir, mahnı oxuyurlar). | 7.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlar musiqili fəaliyyət zamanı mahnıda olan qafiyələri təkrarlayır, əl hərəkətləri ilə mahnının sözlərini canlandırırlar. |
| **20. Böyük və kiçik ölçülü oyun bloklarından/kublardan istifadə edilməsi**[61]<br>*1–6 yaş arası uşaqlar üçün* | | | |
| 1.1. Qrup otağında və həyətdə oyun blokları/kublar yoxdur.<br><br>1.2. Uşaqlar bloklar/kublar ilə oynayan zaman əməkdaşlar onlara diqqət yetirmir və oyunla maraqlanmır, ancaq uşaqlar dəcəllik edəndə və ya oyundan sonra guşəni təmizləmək lazım olduqda müdaxilə edirlər. | 3.1. Qrup otağında iki uşağın 20 dəqiqə ərzində birlikdə rahat şəkildə oynaması üçün bloklar/kublar var.<br><br>3.2. Otaqda iki uşağın rahat şəkildə bloklarla/kublarla oynaması üçün kifayət qədər təmiz yer ayrılıb.<br><br>3.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqların bloklarla | 5.1. Otaqda üç uşağın bloklardan eyni zamanda müxtəlif ölçüdə 3 qurğunun düzəltməsi üçün yer var.<br><br>5.2. Bloklar ölçüyə və formaya görə ayrı-ayrı işarələnmiş qutulara qoyulur və uşaqlar üçün əlçatan rəflərdə saxlanılır.<br><br>5.3. Otaqda bloklara/kublara aid ayrıca guşə, guşədə rəflər, | 7.1. Otaqda bloklar/kublar guşəsi üçün böyük və geniş yer ayrılıb ki, bir neçə uşaq fəal şəkildə oynaya bilsin.<br><br>7.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqların düzəltdiyi qurğular haqqında məlumatlar yazmaqla quraşdırma/ tikinti prosesini yazı ilə əlaqələndirir: uşaqların, qurğuların adlarını və |

[61] Bloklar və kublar dedikdə, uşaqların sərbəst şəkildə hər hansı qurğunu (ev, qaraj, alış-veriş mərkəzi, dəmir yolu stansiyası və s.) düzəldə biləcəyi bloklar nəzərdə tutulur. Bunlar daha çox böyük və orta ölçüdə, müxtəlif formada olur. Bir-birinə bağlanmır, taxtadan, qalın kartondan və ya plastikdən ola bilər. Bloklardan başqa burada 3 kateqoriyada oyuncaqların olması vacibdir: oyuncaq adamlar, maşınlar və heyvanlar.

| | | | |
|---|---|---|---|
| | oynamasına maraq göstərməyə çalışır, suallar verir, blokların/kubların formaları haqqında danışır, uşaqların onları nəyəsə bənzətməsini istəyirlər. | bloklar üçün konteynerlər, yerdə xalça var, guşə kiminsə keçməsinə mane olmadığı yerdə yaradılıb.<br><br>5.4. Bloklar/kublar guşəsi uşaqlar üçün minimum 40 dəqiqə ərzində əlçatandır.<br><br>5.5. Uşaqlar oynadığı müddətdə əməkdaşlar onlarla düzəltdikləri qurğular haqqında danışır, forma, ölçü, məqsədini izah edir, düzəltmə prosesi barədə suallar verir və uşaqlara maraqlı olan qurğuları nümayiş etdirirlər. | məqsədini, işlənmiş formaları və s. qeyd edirlər.[62]<br><br>7.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar qurașdırma/ tikinti prosesini sadə riyazi anlayışlar ilə əlaqələndirməyə çalışır: böyük–kiçik, daha çox–daha az, forma və ölçü barədə uşaqlar ilə danışır. |
| **21. Süjetli-rollu oyunlar**[63]<br>*1-6 yaş arası uşaqlar üçün* | | | |
| 1.1. Süjetli-rollu oyunlar üçün resurslar bütün uşaqların oynaması üçün kifayət etmir, uşaqlar oyuncaq və materialları | 3.1. Uşaqların süjetli-rollu oyunları oynaması üçün bəzi resurslar mövcuddur və | 5.1. Süjetli-rollu oyunlar guşəsində fərqli oyuncaqlar[65] və materiallar mövcuddur və uşaqlar üçün əlçatan yerdə saxlanılır. Eyni zamanda 4-5 | 7.1. 5.1-ci indikatorda göstərilən oyuncaqlar arasında müxtəlif irqləri, insanların fərqli ehtiyaclarını (məs., oyuncaq əlil arabası) əks etdirən |

[62] Nümayiş etdirmək üçün materialların birindən bu işlərin əvvəl də həyata keçirilməsi qənaətinə gəlmək olarsa, BƏLİ yazılmalıdır.
[63] Süjetli-rollu oyunlar uşaqların real həyatda olan situasiyaları, münasibətləri və obrazları canlandırdığı oyun növüdür. Uşaqlar ailədə, dükanda, uşaq bağçasında, şəhərin küçələrində gördükləri obrazları və münasibətləri təkrarlayaraq rollara girir və oynayırlar. Bu növ oyun üçün qrup otağında oyuncaq insanlar, oyuncaq heyvanlar, evciklər, maşınlar, oyuncaq qab-qacaq, mebel, müxtəlif peşələrə aid oyuncaq əşyalar mövcud olmalıdır. Süjetli-rollu oyunlar üçün uşaqların hər hansı təlimata uyğun oynaması deyil, sərbəst şəkildə özlərinin qurduqları ssenari üzrə oynaması başlıca şərtdir.
[65] Kuklalar, oyuncaq mebel, qab-qacaq, yumşaq parçalar, balışlar, karton qutular və s.

| | | | |
|---|---|---|---|
| bölüşdürə bilmirlər. Oyuncaqlar qırıqdır, bəzi hissələri çatışmır.<br><br>1.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlar süjetli-rollu oyun zamanı uşaqların oyunlarına diqqət yetirmir, ancaq bəzən mənfi davranışları dayandırmaq üçün müdaxilə edirlər. | uşaqlar onlarla sərbəst oynaya bilirlər.[64]<br><br>3.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqların oyunlarını izləyir və onları dəstəkləyirlər (kuklaları geyindirməyə kömək edir, oyuncaq qab-qacaqları yerləşdirirlər və s.)<br><br>3.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqlarla müsbət ünsiyyət qururlar: uşaqlara oyunları barədə sual verir, bir-birilə oynamağa həvəsləndirirlər. | uşağın rahat şəkildə, növbə gözləmədən oynaması üçün şərait var.<br><br>5.2. 5.1-ci indikatorda göstərilən oyuncaqlar uşaqlara minimum 30-40 dəqiqə ərzində əlçatandır. Oyundan sonra oyuncaqlar səliqəli şəkildə yığılır və təmiz yerdə saxlanılır.<br><br>5.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqlarla oyunları barədə söhbət edir, iştirak edərək onların dediklərini və etdiklərini dəstəkləyirlər. | kuklalar və oyuncaqlar mövcuddur.<br><br>7.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqların süjetli-rollu oyunlarını ətraf mühitlə tanışlıq və nitqin inkişafı, məntiqi və riyazi təfəkkürün inkişafı üçün fəaliyyətlərə inteqrasiya edirlər: böyük-kiçik ölçü, qısa-uzun haqqında danışır, yazılı hərflərə diqqətlərini çəkir, hərfləri izah edir, kiçik əşyaları sayaraq say və hesabı öyrədirlər. |
| **22. Ətraf mühitlə tanışlıq: təbiətdə baş verən hadisə və proseslər haqqında öyrənmə**<br>*1–6 yaş arası uşaqlar üçün* | | | |
| 1.1. Qrup otağında ətraf mühitə (təbiətə) aid materiallar mövcud deyil.[66] | 3.1. Qrup otağında təbiətə və ətraf mühitə aid materiallar və oyuncaqlar var. Uşaqlar | 5.1. KÖRPƏLƏR QRUPUNA *(1-3 yaşlı uşaqlar)* AİD: həyətdə (hava şəraiti əlverişlidirsə) təbiət haqqında | 7.1. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqlara ölçmək, qruplaşdırmaq, çeşidləmək, müqayisə etmək, təhlil etmək, |

[64] "Bəzi materiallar" dedikdə ən az 2 kukla, 1 dəst oyuncaq qab-qacaq, 2 yumşaq oyuncaq, 1 dəst oyuncaq heyvanlar, "sərbəst" dedikdə uşaqların rəflərdən oyuncaqları götürə, oyuna başlaya, özünə oyun tərəfdaşı seçə bilməsi nəzərdə tutulur.

[66] Ərtaf mühitin (təbiətin) öyrənilməsinə aid materiallar 5 kateqoriyaya aid materiallardır: (məktəbəqədər təhsil kurikulumunda 2.1-ci məzmun standartlarına uyğun):
1. Uşaqların yaxından müşahidə edə və qayğı göstərə biləcəkləri **canlı obyektlər**: həyətdəki bitkilər, güllər, ağaclar, kiçik ev heyvanları.
2. **Təbii obyektlər**: daşlar, mərmərlər, quş yuvaları, ağac budaqları, yarpaqlar, şəffaf qutularda həşəratlar, müxtəlif toxumlar.
3. **Təbiəti/elmi araşdırmaları əks etdirən kitab və jurnallar,** bu mövzuya aid şəkilli loto, domino, pazllar
4. **Araşdırma alətləri**: böyüdücü şüşələr, kolbalar, maqnitlər, şamlar.
5. **Qum və su:** su ilə oynamaq üçün kiçik qablar, qumla oynamaq üçün oyuncaq bellər, müxtəlif ölçüdə və formada plastik qablar.

| | | | |
|---|---|---|---|
| 1.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlar müşahidə zamanı uşaqlarla təbiət haqqında söhbət etmirlər (fəsillər və hava haqqında danışmır, heyvanlara və təbiətə aid kitablar oxumurlar).<br><br>1.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar heyvanlardan, təbii hadisələrdən, faktlardan danışanda daha çox mənfi şərhlər verirlər: "it-pişik sevmirəm", "həşəratlardan qorxuram" və s. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqların suallarına və maraqlarına diqqətli yanaşmırlar. | müəyyən vaxt ərzində [67] onlarla məşğul ola bilirlər.<br><br>3.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqlarla təbiət və ətraf mühit barədə söhbət edirlər: hava haqqında danışır, heyvanların adlarını soruşur. Yemək zamanı onun hansı məhsullardan hazırlandığını müzakirə edirlər; gəzinti vaxtı həyətdə olan bitkilər barədə danışır, onları sulayır, yarpaqların formaları barədə danışırlar.<br><br>3.3. Uşaqlara minimum 15 dəqiqə qum və su ilə (habelə, müvafiq oyuncaqlarla) oynamağa imkan verilir. | öyrənmək üçün fəaliyyələtlər planlaşdırılır: otlar və yarpaqlar yığılır, onlar haqqında məlumat verilir, həşərat və quşlara baxılır, onlar haqqında bəzi məlumatlar verilir.<br><br>3–6 YAŞLI UŞAQLARA AİD: 20-30 dəqiqəlik[68] məşğələ zamanı uşaqlar qeyd olunan 5 kateqoriyaya aid olan materiallar ilə məşğul olurlar.[69]<br><br>5.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqlara ətraf mühit və təbiət haqqında müxtəlif resursları nümayiş etdirir və məlumat verirlər. Uşaqlar sual verməyə və onları maraqlandıran məsələləri müzakirə etməyə həvəsləndirilirlər.<br>5.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar təbiətin, ətraf | səbəb-nəticə əlaqələrini anlamaq, nəticə çıxartmaq kimi bacarıqları öyrətmək üçün təbii materiallardan istifadə edərək müxtəlif fəaliyyətlər həyata keçirirlər: rənginə, formasına, ölçüsünə görə mərmərləri çeşidləyir, daşları kiçikdən-böyüyə düzür, havanın dəyişkənliyinə aid cədvəl/qrafik qurur, daşların, mərmərlərin, toxumların, yarpaqların çəkisi barədə fərziyyələri irəli sürür və müşahidə/eksperiment yolu ilə nəticə çıxarırlar.[70]<br><br>7.2. Qrup otağında "Təbiət guşəsi"ndə 2 növ bitki və bir canlı heyvan var, uşaqlar onu müşahidə edə bilir və qayğı göstərməyi öyrənirlər (akvarium, quş qəfəsi, hamster və s.) |

---

Uşaqlar bütün bu əşyaları asanlıqla tapmalı, onların harada saxlanıldığını bilməlidirlər. Təbiətə aid kitablar uşaqların əli çatan yerlərdə saxlanılmalıdır. Bu altsahənin indikatorlarına uyğun olması üçün otaq bitkiləri yuxarı künclərdə uşaqlardan uzaq deyil, onların əlləri çatan yerlərdə qoyulmalıdır. Otaqda bitkilərin olması hələ bu indikatora uyğun olması demək deyil.

[67] Müəyyən vaxt dedikdə 1-3 yaşlı uşaqlar üçün 15 dəqiqə; 3-4 yaşlı uşaqlar üçün 20 dəqiqə; 4-5 yaşlı uşaqlar üçün 25 dəqiqə; 5-6 yaşlı uşaqlar üçün isə 30 dəqiqə nəzərdə tutulur.

[68] Məktəbəqədər təhsil kurikulumunda tövsiyələr belə verilir: 3-4 yaş arası qrupda məşğələnin vaxtı 20 dəq, 4-5 yaş arası qrupda məşğələnin vaxtı 25 dəq, 5-6 yaş arası qrupuda 30 dəq məşğələ keçirilə bilər.

[69] Müşahidəçi uşaqların məşğul olduğu materialları bir-bir qeyd edir və sonra BƏLİ və ya XEYR yazır.

[70] Nümunədə göstərilən fəaliyyətlərdən ikisi müşahidə edilirsə, Bəli yazılır. Biri müşahidə edilirsə "6"-da BƏLİ yazılır.

| | | | |
|---|---|---|---|
| | | mühitin qorunması üçün uyğun davranışı təşviq edirlər (uşaqlar ilə birlikdə işığı söndürür və tez-tez suyu israf etməmələrini xatırladırlar, bitkiləri sulayırlar və s.) | 7.3. KÖRPƏLƏR QRUPU ÜÇÜN<br>Qum və su ilə fəaliyyət zamanı uşaqların fəaliyyətinə ciddi nəzarət həyata keçirilir, amma uşaqların sərbəstliyi məhdudlaşdırılmır. |
| **23. Məntiqi və riyazi təfəkkürün inkişafı üçün resurslar və fəaliyyətlər.[71]**<br><br>*Bu altsahələr yalnız 4-5 və 5-6 yaşlı uşaqlar üçündür.* | | | |
| 1.1. Bir neçə riyazi materiallar mövcuddur, amma tətbiq edilmir. | 3.1. Hər üç kateqoriyadan minimum 2 material məşğələ zamanı tətbiq edilir və uşaqlar onlardan istifadə edirlər. | 5.1. Müşahidə olunan məşğələdə minimum on ədəd riyazi material istifadə olunur: hər kateqoriyadan 4 ədəd. | 7.1. Tərbiyəçi-müəllimlər riyazi anlayışları uşaqların gündəlik təcrübələri ilə əlaqələndirirlər: səhər yeməyi zamanı yedikləri |

[71] Riyazi təfəkkürün inkişafı üçün MATERİALLAR dedikdə, uşaqlar sərbəst istifadə edə biləcəyi 3 kateqoriyaya aid olan materiallardan söhbət gedir:
1) hesablamaq və müqayisə etmək üçün əşyalar – kiçik kublar, çubuqlar, şüşə qapaqları, düymələr, üstündə rəqəmlər olan balaca kublar, rəqəmləri olan loto və pazllar;
2) ölçmək (ölçü, çəki, uzunluq), müqayisə etmək, bütövdür, bir neçə hissədən ibarətdir anlayışlarını bilmək üçün materiallar – ölçü qabları, tərəzi, xətkeşlər, termometrlər, ayaqların/boyların ölçülməsi üçün metrlər və xətkeşlər, hissələrə bölünən oyuncaqlar və bütöv-hissə oyunu oynamağa imkan verən stolüstü oyunlar, həndəsi fiqurları olan pazllar və kublar;
3) həndəsi fiqurlar ilə tanışlıq üçün oyuncaqlar: trafaretlər, çeşidləmək üçün yuva tipli, müxtəlif rəngli, formalı və ölçülü kubiklər.
FƏALİYYƏTLƏR dedikdə tərbiyəçi-müəllimlər tərəfindən hazırlanmış və fasilitasiya olunan məşğələlər nəzərədə tutulur. Belə fəaliyyətlər üçün hazırlanmış məşğələlərin planı olmalı, təlim nəticələri qeyd olunmalı, resurslar təyin edilməlidir. Məşğələnin günün hansı vaxtında keçiriləcəyinə dair qərar məktəbəqədər təhsil müəssisində verilir, bu oyun zamanı da həyata keçirilə bilər, kiçik qruplarla və ya bütün qrupla. Riyazi fəaliyyətlər kurikulumda tövsiyə edilmiş saatlara uyğun, amma qrupda olan bütün uşaqlar üçün hazırlanmalıdır. Məktəbəqədər təhsil proqramına (kurikuluma) əsasən riyaziyyat üzrə məşğələlər "məntiqi və riyazi təfəkkürün inkişafı" adlanır, 3-4 və 4-5 yaşlı uşaqlar üçün həftədə 1 dəfə, 5-6 yaşlı uşaqlar üçün həftədə 2 dəfə keçirilir. Ona görə, əgər müşahidəçi 1-3 yaşlı uşaqlar üçün qrupda müşahidələr aparırsa, bu altsahəyə aid bütün indikatorlara TƏTBİQ EDİLMİR YAZILMALIDIR.

| | | | |
|---|---|---|---|
| 1.2. Məntiqi və riyazi təfəkkürün inkişafı məşğələlərində qrupdakı bütün uşaqların iştirak etməsinə diqqət yetirilmir: uşaqlar sadəcə qulaq asır və tezliklə mövzuya maraqları itir; tapşırıqlar bəzən çox asan, bəzən çox çətin olduğuna görə uşaqlar üçün maraqsız olur; uşaqlara sərbəst şəkildə materiallarla işləməyə icazə verilmir və bu da onlarda məşğələyə marağın itməsinə səbəb olur.<br><br>1.3. Tərbiyəçi-müəllimlər uşaqlarda riyazi bacarıqların inkişaf etdirilməsinə diqqət yetirmirlər.[72]<br><br>1.4. Tərbiyəçi-müəllimlər uşaqlara düşünməyə, müzakirə etməyə, dəqiqləşdirici sual verməyə şərait yaratmır, yüksək tonla izah və təlimatları | 3.2. Tərbiyəçi-müəllim uşaqlara sadə suallar verir: Bu hansı fiqurdur? Qabda neçə noxud var? Toxumları saymaq üçün hansı sualı veririk? və s.<br><br>3.3. Uşaqlar məşğələdə həvəslə iştirak edirlər: sual verir, bir-biri ilə ünsiyyət qurur, tərbiyəçi-müəllimə müraciət edir, materialları uzadır, götürür, dəyişirlər.<br><br>3.4. Tərbiyəçi-müəllimlər gün ərzində uşaqlarla söhbət zamanı saymaq,hesablamaq, müqayisə etmək, zaman, məkan və s. anlayışlardan istifadə edir: *əvvəl* əllərimizi yuyuruq, *sonra* yeməyə gedirik; səndə *bir* stəkan və *bir* qaşıq var; sənin iki əlin və hər əlində 5 barmağın var; həyətdə 2 böyük və 5 balaca ağac var; sən gülləri 2 fərqli boya ilə rənglədin; top dairə | 5.2. Tərbiyəçi-müəllimlər uşaqlara riyazi materialların işlədilməsini öyrədirlər: tərəzi necə işləyir, fiqurları tanqrama yığır, həndəsi fiqurların adlarını deyir, əşyanın forma və ölçüsü, miqdarı haqqında danışarkən sözlərdən düzgün istifadə edirlər.<br><br>5.3. Tərbiyəçi-müəllimlər riyazi təfəkkürün inkişafı üçün gündəlik rejimlərdən istifadə edirlər: yemək zamanı masanın forması və ölçüsü haqqında danışır, əllərin yuyulması zamanı 10 dairəsində sayır, qaşıqla yemək yeyərkən çay qaşığı ilə xörək qaşığını müqayisə edir, qrupda oğlanların və qızların sayını qeyd edirlər və s.<br><br>5.4. Məntiqi və riyazi təfəkkürün inkişafı məşğələsindən başqa digər | qida məhsullarını sayır, həyətdə gəzinti zamanı həşəratlar haqqında danışır, onların bədən hissələrini müqayisə edir, təqvimdə həftənin günlərini və fəsillərdə ayların sayını qeyd edirlər, planlaşdırılmış ekskursiyaya qalan günləri sayır və onları təqvimdə qeyd edir və s.<br><br>7.2. Tərbiyəçi-müəllimlər bütün uşaqları həvəsləndirir və mürəkkəb suallar verirlər.[73]<br><br>7.3. Uşaqlara saymaq və müqayisə etmək üçün tapşırıqlar verilir: qrupda olmayan uşaqları saymaq, uşaqların sayına görə salfetləri masanın üzərinə düzmək, həyətə düşəndə pilləkənləri saymaq və sonra otağa qayıdanda müvafiq rəqəmlə qeyd etmək. |

[72] 1.3-cü, 3.4-cü, 5.4-cü, 7.3-cü, 7.4-cü indikatorlara BƏLİ/XEYR yazmaq üçün yalnız məntiqi və riyazi təfəkkürün inkişafı məşğələsinə deyil, 4 saatlıq müşahidə zamanı qeydə alınan faktlara əsaslanmalıdır: tərbiyəçi-müəllimlər gündəlik işlərdə, yemək, həyətdə gəzinti, süjetli-rollu oyunlar və ya bloklarla oyun zamanı riyazi əməliyyatlar üçün şərait yaradırmı, əşyaların forması, ölçüsü və sayı haqqında danışıb müqayisə edirlərmi.

[73] Mürəkkəb sualların nümunələri: “Gəlin düşünək, əgər biz tərəzinin sağ tərəfinə 1 yarpaq, sol tərəfinə isə 1 daş qoysaq, nə baş verəcək?”; “Əgər biz dörd bucağı olan kağızı kəssək, nə alınacaq?” və s.

| | | | |
|---|---|---|---|
| verərək məşğələni aparırlar. Tez və düz cavab verməyən uşaqlar prosesdən kənarda qalırlar.<br><br>1.5. Uşaqlara 5 və 10 dairəsində şifahi say öyrədilir, amma bu rəqəmlərin ifadə etdiyi miqdar uşaqlara göstərilmir, yalnız yazılı rəqəmlər nümayiş etdirilir.<br><br>1.6. Riyazi və məntiqi təfəkkür üzrə məşğələ kağız və qələm vasitəsilə aparılır. | formasındadır (yumrudur), oyun bloklarından ev yığmaq üçün neçə ədəd üçbucaqlı formada kubdan istifadə edildi və s.<br><br>3.5. Tərbiyəçi-müəllimlər məşğələ zamanı yazılı rəqəmləri miqdarla əlaqələndirirlər: 2 rəqəmi ilə iki ədəd düymə, 5 rəqəmi ilə beş ədəd çubuq<br>və s. | fəaliyyətlər və oyunlar zamanı da riyazi anlayışlardan istifadə edirlər: böyük oyuncaq, kiçik top, hündür ağac, qısa budaq, 5 dənə şar - eyni rəngli 3 dənə, fərqli rəngdə 2 dənə və s.<br><br>5.5. Yazılı rəqəmlərin miqdar və ölçü ilə necə əlaqəli olması göstərilir: 5 barmaq – 5 rəqəmi, 2 qaşıq – 2 rəqəmi. | 7.4. Tərbiyəçi-müəllimlər saya, ölçüyə və müqayisəyə aid hekayələr, şeirlər seçir və uşaqlara oxuyur, uşaqlara "biz bu gün 2 hekayə və 1 şeir oxuduq" kimi şərhlər verirlər.<br><br>7.5. Kitablarda olan yazılı rəqəmlərə dair uşaqlardan nümunə gətirmələri və göstərmələri xahiş edilir. |
| **24. Mədəni müxtəlifliyin başa düşülməsinin və qəbulunun təşviqi**<br>*1–6 yaş arası uşaqlar üçün* | | | |
| 1.1. Mədəni müxtəlifliyi əks etdirən tədris materialı mövcud deyil.[74]<br><br>1.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlar qrupda fərqli xüsusiyyətləri və mədəniyyəti olan uşağa (uşaqlara) qarşı qərəzli yanaşmalar nümayiş etdirirlər: xarici görünüşü | 3.1. Mədəni müxtəlifliyə dair minimum 2 nümunə mövcuddur və uşaqların istifadəsinə verilir.<br>3.2. Tərbiyəçi-müəllimlər və digər əməkdaşlar qrupda fərqli mədəniyyət və xüsusiyyətləri olan uşaqlara müsbət yanaşır, onları birlikdə oynamağa cəlb | 5.1. Mədəni müxtəlifliyə dair fərqli materiallar mövcuddur və minimum 5 nümunə uşaqların istifadəsinə verilir.<br>5.2. Uşaqlara nümayiş etdirmək üçün hazırlanmış poster və digər materiallarda qrupda olan müxtəliflik əks olunur. | 7.1. Materiallarda olan müxtəlifliklə yanaşı, tədris məşğələlərinin planlaşdırılmasında da müxtəliflik məsələləri əks olunur, məs.: beynəlxalq müstəvidə qeyd olunan əlamətdar günlərin qeyd olunması.[77] |

[74] Müxtəlifliyə dair tədris materialları bunlardır: müxtəlif irqi, dini mənsubiyyəti və milliyəti əks etdirən kuklalar, şəkilli kitablar, fərqli mədəniyyətlərə aid uşaq mahnıları. Bu kateqoriyaya həm də əlilliyi olan uşaqlar və böyüklər də daxildir.
[77] Məsələn: 11 oktyabr Beynəlxalq Qız Uşaqları günü

| | | | |
|---|---|---|---|
| barədə ucadan danışır; dilinə və milliyyətinə dair diskriminativ şərhlər verir; əlilliyi olan uşağı qrupdan təcrid etməyə cəhd göstərirlər.<br><br>1.3. Tərbiyəçi-müəllimlər və digər əməkdaşlar qızlara və oğlanlara fərqli yanaşırlar: "eləmə, qız uşağısan", "sən kişisən, kişi ağlamaz" kimi şərhlər verirlər; məşğələ zamanı qızlar və oğlanların ayrı-ayrı oturmaqlarını dəstəkləyirlər[75]; hərəkətli oyunlara daha çox oğlanları həvəsləndirirlər, qızları cəlb etməyə cəhd etmirlər. Süjetli-rollu oyunlar zamanı qızlara və oğlanlara stereotipik rolları verirlər. | edir, adları ilə çağırır, uşaqların birgə ünsiyyətini təşviq edirlər.<br><br>3.3. Tərbiyəçi-müəllimlər və digər əməkdaşlar qızlar və oğlanları eyni səviyyədə fiziki aktivliyə və digər fəaliyyətlərə cəlb etməyə çalışırlar. Sərbəst oyun zamanı uşaqları fərqli rolları seçməyə həvəsləndirirlər.[76] | 5.3. Tərbiyəçi-müəllimlər və digər əməkdaşlar müxtəliflik barədə müsbət danışır, uşaqları sual verməyə həvəsləndirir, onlara müxtəlif mahnılar, kitab şəkilləri ilə cavab verməyə çalışırlar. | 7.2. Tərbiyəçi-müəllimlər və digər əməkdaşlar insanların müxtəlif olduqları barədə uşaqlarla söhbətlər aparır, fərqliliyə və müxtəlifliyə hörmətlə yanaşmağın vacibliyini vurğulayırlar. |
| **25. Texnoloji cihazların tətbiqi səviyyəsi**<br>*1–6 yaş arası uşaqlar üçün* | | | |
| 1.1. Uşaq bağçasında tətbiq olunan elektron məzmun uşaqların yaş səviyyəsinə uyğun deyil: cizgi filmi və ya | 3.1. Uşaq bağçasında tətbiq olunan elektron məzmun uşaqların yaş səviyyəsinə uyğundur. | 5.1. Elektron məzmun uşaqları düşündürmək üçün planlaşdırılıb: qruplaşdırma, çeşidləmə, müqayisə aparma, | 7.1. Tətbiq olunan elektron cihazlar uşaqlarda yaradıcılığı və düşünməni təşviq edir (tabletdə rəsm çəkmə |

[75] Burada səssiz, durumu olduğu kimi qəbul edib sorğulamamaq, adət olunanları qəbul etmək "dəstəkləmək" deməkdir.

[76] Stereotipik dedikdə qızlara aid rollar və seçimlər (ana, müəllim, tibb bacısı, həkim, satıcı, mətbəxdə və evdə iş görən, ancaq kuklalar ilə oynayan) və oğlanlara aid rollar (sürücü, polis, mühəndis, yanğınsöndürən və s., maşın və kublarla oynayan) nəzərdə tutulur. Bu rolları və seçimləri tərbiyəçi-müəllimlər və digər əməkdaşlar olduğu kimi qəbul etməməlidir. Bloklar guşəsində mühəndis rolunda oynamağa, böyük motor bacarıqlarını inkişaf etdirən oyunlarda fəal hərəkət etməyə, qaçmağa, hoppanmağa, turnikdə sallanmağa oğlanlar qədər qızlar da həvəsləndirilməlidir.

| | | | |
|---|---|---|---|
| bədii film zorakılığı və ya böyüklərə aid məzmunlu materiallar nümayiş etdirir, kompüter oyunu öyrədici olmur və s.<br><br>1.2. Uşaqlar 30 dəqiqədən artıq müddətdə TV, kompüter, monitor, tablet qarşısında otururlar.<br><br>1.3. Tərbiyəçi-müəllimlər elektron cihazları qurandan sonra, uşaqları tək buraxır, onları izləmirlər. | 3.2. Uşaqlar 10-15 dəq. müddətində TV və ya video müşahidə edirlər.<br>**TƏTBİQ EDİLMİR yazıla bilər.**<br><br>3.3. Elektron cihazlar tətbiq olunanda uşaqlar üçün alternativ fəaliyyətlər də təklif olunur. | nəticə çıxartma bacarıqlarını inkişaf etdirən videooyunlar, cizgi filmləri və s.<br><br>5.2. Uşaqlar elektron cihazlardan 15 dəqiqədən artıq istifadə etmirlər (smart board, tablet, smarfon və s.)<br>**TƏTBİQ EDİLMİR yazıla bilər.**<br><br>5.3. Elektron medianın tətbiqində uşaqlarla birlikdə tərbiyəçi-müəllimlər də fəal iştirak edirlər: öyrədici oyunları birlikdə oynayır, kompüter proqramından istifadə etməyi öyrədirlər. Bütün bunlar planlaşdırmada əks olunur.<br>**TƏTBİQ EDİLMİR yazıla bilər**. | proqramından istifadə edirlər; monitorda rəqs və ya idman hərəkətləri öyrənirlər).<br><br>7.2. Elektron cihazlar və proqramlar qrupda öyrənilən mövzuları dərindən mənimsəmək üçün tətbiq edilir: tərbiyəçi-müəllimlər uşaqlarla birlikdə onları maraqlandıran mövzulara dair məlumatı internetdə axtarır, gələcək üçün planlaşdırılmış ekskursiyaya dair məlumatlara baxır, valideynlərə elektron məktub yazırlar və s. |
| **SAHƏ 5: QARŞILIQLI ÜNSİYYƏT** | | | |
| **26.Böyük motor bacarıqlarını inkişaf etdirən fəaliyyətlərə nəzarət** [78]<br>*1-6 yaş arası uşaqlar üçün* | | | |

[78] Bu altsahəni qiymətləndirmək üçün müşahidəçi 4 saat ərzində hər hansı böyük motor bacarıqlarını inkişaf etdirən fəaliyəti izləməlidir. Əgər 4 saat ərzində böyük motor bacarıqlarını inkişaf etdirən fəaliyyət müşahidə olunmayıbsa, 1.1-ci; 1.2-ci; 1.3-cü indiaktorlara BƏLİ, digər indikatorlara isə XEYR yazılmalıdır. Qiymət yazmaq üçün uşaqların məhz böyük hərəki fəaliyyətlə məşğul olması müşahidə olunmalıdır. Böyük motor bacarıqlarını inkişaf etdirən fəaliyyətə bunlar daxildir: yeriməк, qaçmaq, hoppanmaq, pilləkənləri qalxıb-düşmək, topu atmaq və tutmaq. Deməli, böyük motor bacarıqlarını inkişaf etdirən fəaliyyətlər uşaqların böyük əzələlərini və bədənin koordinasiyasını inkişaf etdirən fəaliyyətlərdir. Bütün bunlar məktəbəqədər təhsil proqramının (kurikulumun) "**Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik"** məzmun xəttində təsvir olunan fəaliyyətlərdir.

| | | | |
|---|---|---|---|
| 1.1. Böyük motor bacarıqlarını inkişaf etdirən fəaliyyət zamanı uşaqların təhlükəsizliyinə kifayət qədər diqqət yetirilmir: uşaqlar oyun meydançasında tək oynayır, ya da əməkdaşlar meydançada olsalar da uşaqlara nəzarət etmirlər, uşaqların hamısını nəzarətdə saxlamaq üçün yetərli qədər əməkdaş yoxdur.<br><br>1.2. Tərbiyəçi-müəllimlər və digər əməkdaşlarla  uşaqlar arasında ünsiyyət mənfidir: uşaqların fəaliyyətlərə cəlb olunması məcburidir; uşaqlar danlanır, onların ünvanına kobud sözlər səslənir; “olmaz”, “yox”, “eləmə” sözlərindən səbəbi izah edilmədən istifadə edilir. Uşaqların müraciətləri cavabsız qalır.<br><br>1.3. Gəzintidə olduqları müddətdə uşaqlar böyük motor bacarıqlarını inkişaf etdirən | 3.1. Tərbiyəçi-müəllimlər və digər əməkdaşlar böyük motor bacarıqlarını inkişaf etdirən fəaliyyət zamanı uşaqlara diqqət yetirirlər: bütün uşaqlara nəzarət edilir, uşaqların müraciətlərinə cavab verilir, oyun sahəsi bütövlükdə diqqət dairəsindədir.<br><br>3.2. Tərbiyəçi-müəllimlər və digər əməkdaşlarla uşaqlar arasındakı ünsiyyət neytral və daha çox müsbətdir (uşaqlar danlanmır, uşaqlara kobud şəkildə müraciət edilmir, səs tonu yüksəldilmir, “olmaz” və “yox” sözlərinin səbəbləri açıqlanır).<br><br>3.3. Tərbiyəçi-müəllimlər və digər əməkdaşlar uşaqları böyük motor bacarıqlarını inkişaf etdirən fəaliyyətə cəlb etməyə çalışırlar: qaçmağa, hoppanmağa, topla oynamağa şövq edir; özləri də oyunlara | 5.1.Böyük motor bacarıqlarını inkişaf etdirən fəaliyyət zamanı uşaqlara ciddi nəzarət və diqqət yetirilir: təhlükəli ola biləcək avadanlıqların yanında daim 1–2 əməkdaş var, əməkdaşlar elə yerdə dururlar ki, bütün sahəni və hər bir uşağı nəzarətdə saxlaya bilsinlər; təhlükəli ola biləcək hərəkətləri dərhal dayandırırlar (uşaqlar arasında mübahisələr, avadanlıqlardan uyğunsuz istifadə).[79]<br><br>5.2. Tərbiyəçi-müəllimlər və digər əməkdaşlar və uşaqlar arasındakı ünsiyyət müsbətdir: uşaqlar fəaliyyətdə iştirak etməyə həvəsləndirilir, amma məcbur edilmir; uşaqlar arasında mübahisələr əmələ gələrkən, onlarla birlikdə alternativlər müəyyən edilərək, həll olunur; təhlükə yarada biləcək hərəkətlər təhlükənin | 7.1. Tərbiyəçi-müəllimlər və digər əməkdaşlar uşaqlar üçün ciddi hərəki fəaliyyətlər[80] təşkil edir və özləri də onlarla birlikdə iştirak edirlər.<br><br>7.2. Tərbiyəçi-müəllimlər və digər əməkdaşlar uşaqlara yeni bacarıqları öyrədirlər: daha tez qaçmaq, daha hündürə dırmaşmaq, topu daha dəqiq istiqamətdə atmaq, cüt şəkildə oynamaq, sağ-sol tərəfi tanıyaraq hərəkət etmək, kompleks hərəkət etmək: topu saxlayaraq qaçmaq və hoppanmaq, uzaqdan topu səbətin içinə atmaq, halqa ilə hərəkət etmək və s. |

[79] Velosipedi sürərkən arzanı çevirmək; topu, digər oyuncaqları uşaqlara və yerə atmaq; qumu, suyu yerə dağıtmaq; yelləncəkdə hoppanmaq, fırlanmaq, bərk yellənmək və s.

[80] “Ciddi motor bacarıqlarını inkişaf etdirən fəaliyyətlər”: uşaqlar fiziki hərəkətləri edərkən onlarda təngnəfəslik yaransa da, bir qədər fiziki yorğunluq hiss etsələr də  bu fəaliyyətdə xoş əhvali-ruhiyyə ilə iştirak edirlər.

| | | | |
|---|---|---|---|
| fəaliyyətlərə qoşulmur, fəaliyyət üçün yetərincə avadanlıq olduğu halda, əməkdaşlar uşaqlara onlardan istifadə etməyə icazə vermirlər, uşaqları sakit, oturaq fəaliyyətə cəlb etməyə çalışırlar. | cəlb olunaraq, fəal hərəkətləri modelləşdirirlər. | nədən ibarət olduğu izah edilərək dayandırılır.<br><br>5.3. Tərbiyəçi-müəllimlər və digər əməkdaşlar uşaqları hoppanmağa, qaçmağa, topla oynamağa həvəsləndirir; onlara məkanda olan avadanlıqlardan istifadə yollarını və faydasını izah edirlər. | |
| **27. Öyrətmə və öyrənmə zamanı fərdi yanaşma** [81]<br>***1–6 yaş arası uşaqlar üçün*** | | | |
| 1.1. Öyrətmə və öyrənmə, əsasən, qısa fəaliyyətlər zamanı baş verir, digər vaxtlardan (məs., yemək və gəzinti vaxtı nitqin inkişafı; oyun vaxtı riyazi bacarıqların | 3.1. Tərbiyəçi-müəllimlər və digər əməkdaşlar bəzi fəaliyyətlər zamanı yeni bilik və bacarıqları fərdi olaraq öyrətmək üçün istifadə edirlər (paltarların dəyişməsi zamanı | 5.1. Müşahidə zamanı uşaqlar, əsasən, açıq tipli tapşırıq və fəaliyyətlər ilə məşğul olurlar, tərbiyəçi-müəllimlər yeni bilik | 7.1. Öyrənmə prosesi, əsasən, sərbəst oyun zamanı keçirilir və fərdi qaydada baş verir. |

[81] Öyrətmədə fərdi yanaşma dedikdə, tədris prosesi zamanı qrupdakı uşaqların fərqli bacarıqları, ehtiyacları və maraqlarını nəzərə alaraq məşğələlərin təşkili, sistematik olaraq uşaqlarla fərdi işin aparılması, dəstəyin verilməsi, həvəsləndirilməsi, uşaqların irəliləməsinin qiymətləndirilməsi nəzərdə tutulur. Müşahidə zamanı fərdi yanaşmanı belə müəyyən etmək olar: məşğələnin gedişatında tərbiyəçi-müəllim hamı üçün eyni təlimatlar vermir, tez-tez uşaqlara yaxınlaşır, fərqli səviyyədə bacarıqları formalaşdıran tapşırıqlar verir (differensiasiya), eyni tapşırıq verildiyi halda fərqli izahatlar verilir, tapşırığın yerinə yetirilməsi üçün uşaqlara kifayət qədər vaxt verilir, bütün suallar cavablandırılır, "neçə dəfə eyni şeyi demək olar", "bir dəfə deyirəm/göstərirəm, hamı baxır və təkrar edir" kimi cümlələrə yol verilmir. Oyun zamanı fərdiləşdirmə belə təşkil olunur: daha böyük uşaqlara kompleks oyuncaqlar təklif olunur, oyun zamanı onlara yeni materiallar əlavə olunur ki, oyunun fərqli yolunu düşünsünlər, məsələn, uşaqlar kublarla oynayanda, onlara üçbucaq şəkilli blok verilir və bu bloku oyun kubunun üzərində yerləşdirmək təklif olunur. Sonra müzakirə başlanır: biz nə etdik, nə alındı, neçə fiqurdan alındı, daha hansı fiqurlar istifadə oluna bilər və s. Digər nümunə: daha bacarıqlı uşaqlara oyunda istifadə olunan həndəsi fiqurların şəklini çəkmək və onları sayaraq, rəqəmlə ifadə etmək təklif olunur, həndəsi fiqurlardan misallar yaradıb hesablamaq üzrə bacarıqları dərinləşdirmək olar, yəni oyuna savad təlimini inteqrasiya etmək.
Bir çox ölkələrdə öyrətmə və öyrənmədə fərdi yanaşma erkən yaş dövrü üzrə kurikulumlarda əks olunur və fərqli yaş qrupları üçün fərqli təlim nəticələrinin əldə edilməsini təşviq edir. Azərbaycan Respublikasında tətbiq olunan məktəbəqədər təhsil kurikulumunda fərdi yanaşma məhz pedaqoji metodların və mövzuların seçimi ilə, müxtəlif bacarıqları formalaşdıran tədris materiallarının tətbiqi ilə təşkil oluna bilər.

| | | | |
|---|---|---|---|
| inkişafı) yeni məsələlərin öyrədilməsi üçün istifadə edilmir.<br><br>1.2. Tərbiyəçi-müəllimlər uşaqlara yeni mövzuları şifahi söhbət formatında çatdırır və hər uşaqdan eyni cür cavab gözləyirlər.<br><br>1.3. Uşaqlara verilən tapşırıqlar qapalı[82] – yeganə düz cavabı tələb edir (məs., almanı qırmızı, günəşi sarı rəng ilə rəngləmək, kublardan evcik yığmaq, qızlar kuklaları, oğlanlar maşınları rəngləyir).<br><br>1.4. Uşaqlara tez-tez “səhvdir”, “düz deyil”, “sən bilmədin”, “kim daha düzgün edər/deyər” kimi sözlər deyilir. | rəngləri öyrədir, yemək zamanı ərzaqlara aid yeni sözləri öyrədir, gəzinti zamanı təbiət haqqında danışır və s.)<br><br>3.2. Yeni mövzu və anlayışların öyrədilməsi sərbəst oyun zamanı baş verir, bəzi uşaqlarla masa arxasında fərdi iş aparılır. Tərbiyəçi-müəllimlər və digər əməkdaşlar uşaqlara müxtəlif guşələrdə məşğul olmağa imkan yaradır, özü isə otaqda olan hər bir guşəni gəzir, uşaqların fəaliyyəti zamanı onlara qoşulur, onların suallarını cavablandırır, izahatlar verir.<br><br>3.3. Uşaqlar müxtəlif materiallar ilə özləri istədikləri kimi məşğul ola bilərlər. Onlardan yeganə düzgün cavab/ yeganə düzgün istifadə yolu gözlənilmir. | və bacarıqları həmin proseslər zamanı öyrətməyə çalışırlar:[83]<br><br>5.2. Tərbiyəçi-müəllimlər və digər əməkdaşlar uşaqları daha çox bilməyə və etməyə həvəsləndirirlər, özləri oyunlara qatılır və yenilikləri öyrənməni modelləşdirirlər.<br><br>5.3. Tərbiyəçi-müəllimlər tərəfindən aparılan məşğələlər zamanı uşaqlara tapşırıqları yerinə yetirmələri üçün vaxt verilir, onları tələsdirmirlər, proses zamanı izləyir, lazımi dəstəyi verirlər: daha çox vaxt, əlavə izahatlar, əlavə və ya fərqli materiallar və s. | 7.2. Öyrənmə zamanı uşaqların hamısı cəlb olunur və həvəslə iştirak edirlər. Tərbiyəçi-müəllimlərin planlarında hər bir uşaq üçün fərdi məqsədlər göstərilib, tapşırıqlar isə həmin məqsədləri əks etdirir. |

[82] Qapalı olmayan, yəni “açıq tapşırıqlar/materiallar və fəaliyyətlər” o tapşırıqlar və fəaliyyətlərdir ki, uşaqlar onlardan öz bildikləri kimi, düşündükləri kimi istifadə edə bilirlər. Məsələn, nümunə üzrə rəsm çəkmək təklif olunursa, uşaqlar rəngləri və rəngləmə üsullarını özləri seçə bilərlər, rəsmlərini təsvir etdikdə öz sözlərindən istifadə etməyə həvəsləndirilirlər. “Açıq tapşırıqlar” nəticəsi əvvəlcədən təyin edilməyən, istənilən nəticə qəbul edilən tapşırıqlardır.

[83] Bu cür öyrətmənin nümunələri: kublardan qala quran uşaqlara saymaq və hündür-alçaq anlayışları öyrədilir, həndəsi fiqurlar barədə məlumat verilir, müqayisə etmək, rənglərə görə qruplaşdırmaq öyrədilir; oyun zamanı böyük-kiçik anlayışı öyrədilir; süjetli-rollu oyunlar guşəsində uşaqlar ilə dialoq aparılır və yeni sözlər işlədilərək uşaqların söz ehtiyatı zənginləşdirilir.

| | | | |
|---|---|---|---|
| | 3.4. Uşaqları həvəsləndirən ifadələrdən istifadə olunur: “maraqlı fikirdir”, “gəl, bunun başqa yolunu da tapaq“, ”başqa cür edə bilərsən” və s. | | |
| **28. Tərbiyəçi-müəllim və digər əməkdaşlarla uşaqlar arasında ünsiyyət [84]**<br>*1–6 yaş arası uşaqlar üçün* | | | |
| 1.1. Tərbiyəçi-müəllimlər və digər əməkdaşların uşaqlarla ünsiyyəti formal və məsafəlidir: uşaqlara adla müraciət edilmir, danışanda uşağa tərəf əyilmir, toxunmurlar, uşaqların müraciətləri, əsasən, cavabsız qalır, tərbiyəçi-müəllimlər yüksək səslə danışaraq uşaqların səslərini örtməyə çalışırlar.[85]<br><br>1.2. Uşaqlarla verbal ünsiyyət, əsasən, mənfi xarakterlidir [86]: əmr formasında feillər işlənir, | 3.1. Qrupda müsbət ünsiyyət müşahidə olunur: əməkdaşlar uşaqlar bağçaya gələndə onları xoş sözlərlə qarşılayır, oyun zamanı oyuncaqlarla düzgün davrananda onları tərifləyirlər (afərin, oyuncağı atmırsan, yavaş qoyursan və ya götürürsən), uşaqlar bir-birinə oyuncaq verəndə və ya götürəndə müsbət hərəkət dəstəklənir (afərin, yaxşı elədin oyuncağı verdin, düz elədin ki, bölüşdün, yaxşı elədin ki, yerini verdin və s.).[87] | 5.1. Qrupda müsbət verbal və qeyri-verbal (baxış, toxunuş, gülümsəmə, qarşılıqlı müsbət replikalar) ünsiyyət müşahidə olunur.<br><br>5.2. Qrupda rahat və sakit atmosfer qeydə alınır: tərbiyəçi-müəllim uşaqların diqqətini cəlb etmək üçün səsini yüksəltmir, hər kəs fəaliyyətə cəlb olunub, nə uşaqlar, nə də əməkdaşlar | 7.1. Tərbiyəçi-müəllimlər və digər əməkdaşlar uşaqlara hörmətlə yanaşır: sakit danışırlar, ehtiyac olduqda nizam-intizamı sakit, rahat tonla bərpa edirlər; uşaq hər hansı bir tapşırığı yerinə yetirdikdə təşəkkür edirlər; uşaqların müraciətlərinə diqqətlə axıra qədər qulaq asırlar.<br><br>7.2. Uşaqlar narahat və ya əsəbi olan halda belə, əməkdaşlar onlarla sakit |

[84] “Ünsiyyət” dedikdə, həm verbal, həm qeyri-verbal ünsiyyət nəzərdə tutulur: mimika, səs tonu, jestlər, bədən duruşu (uşağa qarşı əyilmək, göz təması). Yuxardan aşağı baxmaq, uşağa “sən bura gəl, mən səni eşitmirəm” kimi hərəkət və ifadələr qeyri-verbal ünsiyyətin mənfi nümunələridir.
[85] Əgər müşahidə zamanı əməkdaşların uşaqların müraciətlərinə, suallarına, ağlamalarına reaksiya verməməsi qeydə alınırsa, bu indikatora BƏLİ yazılmalıdır.
[86] “Mənfi xarakterli ünsiyyət” uşaqlara onların dəyərsiz olduğu haqqında mesaj verir, uşaqlar etibarsız bir yerdə olduqlarını anlayır, uşaq bağçası mühitində fəaliyyətlərə qoşulmaqdan çəkinir və ya tamamən imtina edirlər.
“Müsbət xarakteli ünsiyyət” uşaqlara onların dəyərli olduğu haqqında mesaj verir, onların bacarıqlı olduğunu göstərir, uşaqlar hər zaman dəstəklənəcəklərinə inanır və uşaq bağçası mühitində bütün proseslərdə daha fəal iştirak edirlər.
[87] Bu indikatora BƏLİ yazmaq üçün 4 saat ərzində 2 dəfə qrupa qarşı müsbət müraciət (və ya davranış) və 2 uşağa qarşı müsbət davranış qeydə alınmalıdır. Qrupa qarşı müsbət müraciət nümunəsi: “Afərin, uşaqlar, yaxşı işləyirsiniz, maraqlı ideyalar verirsiniz, gözəl rəsmlər çəkirsiniz. Birlikdə saymaq nə gözəl

| | | | |
|---|---|---|---|
| bunu et və ya bunu etmə kimi izahsız əmrlər verilir, uşaqları tələsdirirlər, mənfi şərhlər verirlər (pinti, tənbəl, dikbaş və s. kimi sözlər istifadə edilir).<br><br>1.3. Uşaqlarla fiziki təmas kobuddur: itələyir, əlindən dartır, güc tətbiq edərək yerində oturdur, otaqdan çıxarır, uşaq istəmədən onu qucaqlayır və s.<br><br>1.4. Verbal ünsiyyət, əsasən, bütün qrupla aparılır, ümumi müraciət olunur: "uşaqlar, bunu edirik, bura baxırıq" və "hamı baxırmı", "edirmi". Fərdi olaraq uşaqlara müraciət olunmur və ya bunu kobud tərzdə edirlər: "N, bura bax", "qulaq as", "Sənə nə qədər demək olar..." və bu kimi kobud müraciətlər. | 3.2. Uşaqlarla fiziki təmas müsbətdir (uşaqları itələmirlər, əllərindən dartıb aparmırlar, məcburən hansısa hərəkəti etdirmirlər).[88]<br><br>3.3. Tərbiyəçi-müəllimlər və digər əməkdaşlar uşaqlarla birlikdə olmaqdan məmnundurlar: uşaqlar ilə oynadıqları oyun haqqında danışır, onların verdikləri izahatlara diqqətlə qulaq asır, vaxtında və uyğun cavab verirlər. | stresli görünmür, hər şey plan üzrə keçir.<br><br>5.3. Tərbiyəçi-müəllimlər və digər əməkdaşlar uşaqlara isti münasibəti fiziki təmas şəklində göstərir: ağlayan uşağı qucağına alır; danışan uşağın əlindən tutur və diqqətlə qulaq asır; sığallayır və qucaqlaşırlar. | danışır və dəstəkləməyə çalışırlar: ağlayan uşağa "ağlamaq olmaz" demir, əvəzinə "gəl səninlə danışaq", "sən niyə narahat oldun, sən nəyə əsəbləşdin" kimi suallar verir və cavabı gözləyir, xoşagəlməz davranışın səbəbini anlamağa və aradan qaldırmağa çalışırlar.<br><br>7.3. Tərbiyəçi-müəllimlər və digər əməkdaşlar uşaqların qeyri-verbal işarələrinə həssaslıq göstərirlər: durmaq istəyən, sözü olan uşağı tez görür və cavab verir; məşğələ zamanı uşaqların yorulduğunu hiss edir və məşğələnin gedişatında dəyişikliklər edirlər; uşaqları həvəsləndirmək üçün rəsm çəkmək və digər passiv fəaliyyətlərə böyük motor bacarıqlarını inkişaf etdirən fəaliyyətləri əlavə edirlər. |
| **29.Uşaqlar arasında ünsiyyət**<br>*1–6 yaş arası uşaqlar üçün* | | | |

alınır, uşaqlar!" və s. Fərdi olaraq uşaqlara qarşı müsbət davranış nümunəsi: əlindən tutmaq; göz səviyyəsinə enib, sakit səslə söhbət etmək; uşaq istəyirsə, qucaqlamaq, başını sığallamaq. Ona adı ilə müraciət edərək, "Sən nə gözəl bulud çəkirsən, bəs yanında bir şey çəkmək istəyərsən?", "Mən sənə necə kömək edim?" və digər bu kimi suallar verməklə ünsiyyət qurur.

[88] Bu indikatora BƏLİ yazmaq üçün mənfi davranışın qeydə alınmaması kifayətdir, yəni neytral və ya müsbət vəziyyət olmalıdır. Əsas odur ki, mənfi fakt qeydə alınmır.

| | | | |
|---|---|---|---|
| 1.1. Uşaqlar bütün gününü əməkdaşların təlimatlarına əsasən keçirir, onlara masada oturması  və ya  oynaması üçün dost seçməyə imkan verilmir.<br><br>1.2. Tərbiyəçi-müəllimlər və digər əməkdaşlar uşaqlara müsbət ünsiyyət nümunələrini təqdim etmirlər: uşaqlar oyuncaqlara görə mübahisə edəndə əməkdaşlar qarışmır və ya qışqıraraq  mübahisəni bitirirlər; davranış pozuntusu olan uşaqlara lazımi nəzarət edilmir.<br><br>1.3. Uşaqlar, əsasən, bir-birilə mübahisə edir, oyuncaqları bir-birinin əllərindən alır, bir-birinə söz ataraq danışır, güc tətbiq etməyə çalışırlar. | 3.1. Müşahidə zamanı uşaqların bir-birilə oynaması üçün  yoldaş  və fəaliyyət növünü seçmək imkanının verilməsi qeydə alınır (deməli, həm gəzinti zamanı, həm də içəridə uşaqlara sərbəst oyun üçün vaxt verilir).<br><br>3.2. Tərbiyəçi-müəllimlər və digər əməkdaşlar uşaqlar arasında yaranmış kiçik mübahisələrin qarşısını alırlar.<br><br>3.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqlar üçün müsbət sosial bacarıqları modelləşdirir: onlar uşaqlarla və bir-birilə nazəkətli davranır; onlara müraciət edildiyində cavab verir; başqalarını gülünc və ya alçaldıcı adlarla çağırmırlar. | 5.1. 4 saatlıq müşahidə zamanı ən azı 1 saat uşaqlar bir-birilə ünsiyyətdə olur: danışır, oynayır, masada oturmaq[89] üçün yoldaş seçə bilir, kiminlə oynamaq istədiklərinə qərar verir, nə ilə oynayacaqlarını müzakirə edirlər.<br><br>5.2. Tərbiyəçi-müəllimlər və digər əməkdaşlar uşaqlara mübahisələrin müsbət həlli yollarını öyrədirlər: növbəli şəkildə velosiped sürmək, yelləncəkdə yellənmək;  qrupa yeni gələn, utancaq uşağa özünə dost tapmaqda kömək edirlər[90]; fəaliyyət növünü seçməkdə dəstək göstərirlər; davranış pozuntusu olan uşaqları fərqli və cəlbedici fəaliyyətlərə qoşmağa çalışırlar.<br><br>5.3. Uşaqlar biri-birini adları ilə çağırırlar. | 7.1. Tərbiyəçi-müəllimlər və digər əməkdaşlar uşaqların müsbət davranışını ön plana çəkməyə çalışırlar: oyuncaqları yığışdırmaqda kömək edən, rəngli qələmləri qrup yoldaşı ilə bölüşən, kublarla sakit tərzdə oynayan uşaqları tərifləyir və onların davranışları haqqında müsbət rəy söyləyirlər.<br><br>7.2. Tərbiyəçi-müəllimlər və digər əməkdaşların qrupdakı uşaqlar arasında  yarana biləcək kiçik mübahisələrin qarşısını almaq üçün düşünülmüş və sistemləşdirilmiş üsulları var, məs.: “Oyuncaq tikinti materialları” guşəsində kublarla oynamaq üçün vaxt cədvəli; velosiped sürmək, yelləncəkdə yellənmək üçün növbəli siyahı və ya rəngli işarələr, uşaqlar bunları bilir və riayət edirlər.<br><br>7.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlaruşaqların birgə fəaliyyəti üçün şərait yaradırlar: bir neçə uşaq çoxlu parçası |

[89] Bura həm də yemək zamanı daxildir.
[90] Buraya birbaşa “Get “N” uşaqla otur” demək daxil deyil. Söhbət məhz uşağın özünü dəstəkləməkdən, ona müsbət nümunə göstərməkdən gedir.

| | | | |
|---|---|---|---|
| | | | olan pazl yığır; “Süjetli-rollu oyunlar” guşəsində yemək bişirmə oyunu oynayırlar; “Oyuncaq tikinti materialları” guşəsində birlikdə kublardan qala düzəldirlər.[91] |
| **30. Nizam-intizam**<br>*1–6 yaş arası uşaqlar üçün* | | | |
| 1.1. Nizam-intizamı yaratmaq üçün ağır üsullar tətbiq edilir: uşaqlara təmas edilir (tələsdirmə və ya hər hansı fəaliyyətə cəlb etmək üçün uşağın çiyin və ya arxa hissəsindən yüngül itələmə və ya toxunmaq), küncə qoyulur; onlara qışqırırlar; qrupdan ayırır və təklikdə başqa otağa qoyurlar; yemək vermirlər.<br><br>1.2. Otaqda nizam-intizam yoxdur: kim nə istəyir, onu edir, proses idarə edilmir, uşaqlar özbaşına buraxılıb.<br><br>1.3. Tərbiyəçi-müəllim və digər əməkdaşların qoyduğu qaydalar uşaqların yaşına | 3.1. Tərbiyəçi-müəllim və digər əməkdaşlarnizam-intizamı qurmaq üçün ağır üsullar tətbiq etmir.<br><br>3.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlarqrupda prosesi nəzarətdə saxlayır: uşaqlar bir-birinə zərər vermir, dalaşmır, oyuncaqları, təlim vəsaitlərini dağıtmır, fəaliyyətlər zamanı tərbiyəçi-müəllimlərin sözünə qulaq asır və özlərini təlimatlara uyğun aparırlar.<br><br>3.3. Uşaqların davranışlarına dair gözləntilər yaşa müvafiqdir: səssiz qalmaq tələbi qısa müddət üçün | 5.1. Uşaqlar qrupda qaydalar haqqında xəbərdardırlar və onlara tərbiyəçi-müəllimlərin nəzarəti (xatırlatması) ilə riayət edirlər.<br><br>5.2. Tərbiyəçi-müəllimlər hər hansı qadağanı qoyanda, onu izah edirlər: “düş aşağı, mən qorxuram, sən yıxılarsan”; “başqa uşağı itələmək/vurmaq olmaz, bu ağrılı ola bilər, biz qrupumuzda heç kimi itələmirik, nə də vurmuruq” və bunun kimi qaydalar, izahlar.[94]<br><br>5.3. Uşaqlara dair gözləntilər yaşlarına uyğundur, problemli hallar əmələ gəlmir. | 7.1. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqların hərəkətləri və hissləri arasında əlaqəni göstərməyə çalışır: “bax, sən ona qələm verdin və o sevindi”, “sən onunla bölüşdün və o rahatladı” və ya “sən kuklanı onun əlindən aldın, indi bax onun üzünə, görürsən nə qədər kefsizdir”, “sən ona bu sözü dedin və o pərt oldu”. [95]<br><br>7.2. Əməkdaşlar fəaliyyətlər arasındakı fasilələri çevik idarə etməyə çalışır: uşaqlar çox gözləmir, uşaqlardan qrup məşğələlərində passiv oturmaq tələb edilmir, fəal iştirak dəstəklənir. |

[91] Buraya birbaşa “Get “N” uşaqla otur” demək daxil deyil. Söhbət məhz uşağın özünü dəstəkləməkdən, ona müsbət nümunə göstərməkdən gedir.
[94] 4 saatlıq müşahdə zamanı ən azı bir dəfə belə qayda izahatı qeydə alınmalıdır ki, 5.2-ci indikatora BƏLİ yazılsın.
[95] Bunları qeydə almaq üçün əməkdaşların və uşaqların fərdi ünsiyyətinə diqqət yetirmək lazımdır, çünki bu cür dialoqlar ucadan aparılmamalıdır.

| | | | |
|---|---|---|---|
| uyğun deyil: uzun müddət danışmamaq, səssiz olub qulaq asmaq, fəaliyyətlər arasında uzun fasilələr yaradaraq uşaqları gözlətmək və heç bir fəaliyyətə cəlb etməmək; öyrətmədən oyun zamanı özünə rol seçmək; bir-biri ilə yola getməyən uşaqları birlikdə oturtmaq və s.<br><br>1.4. Uşaqların arasında kiçik mübahisələrə əsəbi yanaşılır, izah etmədən, alternativ davranışı göstərmədən fərqli davranış tələb edilir. | qoyulur[92]; uşaqların fəal oyunları üçün vaxt verilir.[93]<br><br>3.4. Tərbiyəçi-müəllimlər tərəfindən uşaqlara qarşı mənfi və ya əsəbi davranış qeydə alınmır (tənbeh etmirlər, onları alçaldıcı adla çağırmırlar, uşaqlara qışqırmırlar, lağ etmirlər). | 5.4. Tərbiyəçi-müəllimlər tərəfindən əsəbi sözlər və ya davranışlar qeydə alınmır. | 7.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqlara birbaşa göstərişlər vermədən mübahisələrin həlli yollarını tapmaqda onlara kömək edirlər: mübahisələr, emosiyalar, başqalarının hissləri haqqında danışmağa və onları anlamağa sövq edirlər. |
| **SAHƏ 6: PEDAQOJİ İŞİN TƏŞKİLİ** | | | |
| **31. Məşğələ və digər fəaliyyətlər arasında fasilənin təşkili**<br>*1–6 yaş arası uşaqlar üçün* | | | |

[92] 1-3 yaş arası 10 dəq; 3-4 və 4-5 yaş arası 10-15 dəqiqə ərzində səssiz oturub dinləmək və hər hansı tapşırığı fərdi olaraq yerinə yetirmək norma hesab edilir.

[93] Əgər müşahidə zamanı uşaqların müsbət davranışı qeydə alınırsa və bu tərbiyəçi-müəllimlərin ağır üsullar tətbiq etməsinin nəticəsi deyilsə, 1.1-ci indikatora XEYR, 3.4-cü, 5.4-cü və 7.3-cü indikatora BƏLİ yazılmalıdır.
Müşahidə zamanı uşaqların mənfi davranışı qeydə alınmır, lakin tərbiyəçi-müəllimlər tərəfindən çox ciddi nəzarət edilirsə, o zaman 1.4-cü indikatora BƏLİ, 3.4-cü, 5.4-cü və 7.3-cü indikatorlara isə XEYR yazılmalıdır.

| | | | |
|---|---|---|---|
| 1.1.Fəaliyyətlər (məşğələlər) arasında fasilələr xaotik keçir, uşaqlar məqsədsiz gəzir,[96] bir-biri ilə mübahisə edir, otaqda səliqə-səhman yaratmağa cəlb olunmurlar. [97]<br><br>1.2. Tərbiyəçi-müəllimlər plan üzrə işləməyə hazır deyil: bitmiş fəaliyyətdən sonra uşaqları nə ilə məşğul edəcəklərini bilmirlər.<br><br>1.3. Tərbiyəçi-müəllim və digər əməkdaşlaruşaqlara nə edəcəkləri barədə təlimatlar vermirlər: indi hara getməli, nə etməlidirlər, uşaqlar sual verir, amma cavab ala bilmirlər, eyni sualla müxtəlif adamlara müracitə edirlər, uşaqlar tərbiyəçi-müəllimlərin rollarını bilmirlər.<br><br>1.4. Uşaqlar 10 dəqiqə[98] və daha çox boş qalır, heç bir fəaliyyətə cəlb olunmurlar. | 3.1. Tərbiyəçi-müəllim və digər əməkdaşlarınfəaliyyətlərə hazır olduğu qeydə alınır: yemək vaxtı uşaqlar masaya oturan kimi yeməklər növbə ilə verilir, məşğələ zamanı tərbiyəçi-müəllim nəyisə çapa vermir, kitabda səhifə axtarmır, resurslar (kağız, qələm, boya, qayçı) masada və ya rəfdə hazır olur.<br><br>3.2. Fəaliyyətlərin başladığı və bitdiyi anda tərbiyəçi-müəllimlər prosesi idarə edirlər: otağın yığışdırılması barədə təlimatlar öncədən verilir, tapşırıqların bitməsi vaxtı barədə məlumat verirlər, tualetə getmək istəyənləri öncədən müəyyən edirlər (sual verirlər və ya özləri aparırlar), uşaqlar nəyisə gözləyəndə onları nəzarətdə saxlayırlar və gözləmənin səbəbini izah edirlər. | 5.1. Fəaliyyət və məşğələlər arasında keçidlər rəvan təşkil olunur: otağı təmizləmək üçün xatırlatmalar edilir, uşaqların hər şeyin yerini bildikləri qeyd edilir (oyuncaq, qələm, boya və qayçıları yerinə qoyurlar), uşaqlar təmizlik işlərini bitirəndən sonra otaqdan çıxacaqlarını bilir və sakit cütlər şəklində qapıda gözləyirlər.<br><br>5.2. Tərbiyəçi-müəllim və digər əməkdaşlarplan üzrə növbəti fəaliyyət üçün hazırdırlar (plan üzrə gedirlər). | 7.1. Fəaliyyətlər arasında keçidlər fərdiləşdirilmiş və ya mərhələlər üzrə aparılır: qrupdakı bəzi uşaqlar hələ işi bitirərkən, digərləri gəzintiyə çıxır, daha əvvəl yeməkxanaya gələn uşaqlar artıq yeməyə başlaya bilərlər, bəzi uşaqlar az və ya çox, bəziləri isə heç yatmaya bilərlər və s.<br><br>7.2. Müşahidə zamanı bütün fəaliyyətlər rəvan həyata keçirilir, uşaqlar 3 dəqiqədən çox gözləmək məcburiyyətində deyillər. |

[96] Bu indikatora BƏLİ yazmaq üçün uşaqlardan bir neçəsinə "siz indi nə işlə məşğulsunuz?" sualını verib cavabı gözləmək lazımdır.
[97] "Cəlb olunmaq" dedikdə aşağıdakı fəaliyyət nəzərdə tutulur: uşaqlar hər hansı bir fəaliyyətdə öz rollarını və məqsədlərini bilərək iştirak edir və təlimatları anlayaraq yerinə yetirirlər.
[98] 10 dəqiqə bu indikatorda kumulyativ deyil, əgər müşahidə zamanı uşaqlar hər hansı məqamda 10 dəqiqə ərzində boş, fəaliyyətin yekunlaşmasını və ya başlamasını/dəyişməsini gözləmək məcburiyyətində qalırlarsa, 1.1-ci indikatora BƏLİ yazılmalıdır.

| **32. Sərbəst oyunun təşkili** [99]<br>*1–6 yaş arası uşaqlar üçün*<br>***Bu sahəyə TƏTBİQ OLUNMUR yazıla bilər*** | | | |
|---|---|---|---|
| 1.1. 4 saatlıq müşahidə zamanı uşaqların sərbəst oyununa 25 dəqiqədən az vaxt verilmiş, onlar daha çox masa arxasında vaxt keçirmişlər.<br><br>1.2. Oyun zamanı uşaqlar özbaşına buraxılıb, tərbiyəçi-müəllim onlarla ünsiyyət qurmur.<br><br>1.3. Oyuna ayrılan vaxt uşaqların oyunu bitirməsi üçün kifayət etmir: oyun yarımçıq qalır, vaxt barədə uşaqlara xatırlatma olmur.<br><br>1.4. Qrupda oyun üçün vəsait mövcud deyil. | 3.1.Uşaqlar otaqda ən azı 30 dəqiqə ərzində sərbəst oyuna cəlb olunurlar.<br><br>3.2 Tərbiyəçi-müəllimlər və digər əməkdaşlar uşaqlara sərbəst oyun zamanı nəzarət edirlər: təhlükə yarada biləcək hərəkətlərin qarşısını alır, uşaqlar arasında mübahisələri dayandırır, oyuncaq axtaran uşağa yardım edirlər.<br><br>3.3. Uşaqlara oyunu bitirmək üçün vaxt verilir, yəni hər hansı yeni fəaliyyətə keçməzdən əvvəl, tərbiyəçi-müəllimlər uşaqların oyunu başa çatdırmasına nəzarət edir, oyunun dəqiq vaxtını elan edir və əvvəlcədən danışaraq uşaqlarla birlikdə vaxtı izləyir, yeni fəaliyyətə keçmək zərurəti | 5.1. Müşahidə olunan 4 saat ərzində uşaqlar minimum 1 saat sərbəst oyuna qatılırlar.[101]<br><br>5.2. Sərbəst oyun zamanı tərbiyəçi-müəllimlər uşaqlarla müsbət ünsiyyət qururlar (oyunun mahiyyəti, müxtəlif vəsaitləri necə tətbiq etdikləri barədə suallar verir, uşaqların gördükləri işi real həyatla əlaqələndirir, onların oyunda rolu barədə soruşurlar).<br><br>5.3.Oyunlar üçün vəsaitlər və müxtəlif praktiki avadanlıqlar mövcuddur.[102]<br><br>5.4. Sərbəst oyun vaxtını idarə etmək üçün tərbiyəçi-müəllimlər vaxt barədə uşaqlarla söhbət aparır, | 7.1. Qrupdakı vəsaitlər və fəaliyyətlər hazırda tədris edilən mövzuya aiddir.[104]<br><br>7.2. Tərbiyəçi-müəllimlər və digər əməkdaşlar oyun zamanı uşaqların şifahi nitqinin inkişafına yönəldilmiş geniş söz ehtiyatından istifadə edirlər (sinonimlər, antonimlər, təsviri sözlər, hərəkət bildirən sözlər).<br><br>7.3. Oyun zamanı hər hansı bir uşaqla və ya kiçik qrupla məşğul olunan zaman, bütün qrupun fəaliyyəti izlənilir və nəzarətdə saxlanılır. |

[99] Bu altsahəni qiymətləndirmək üçün 4 saat ərzində müşahidə olunan bütün oyun fəaliyyətlərinə diqqət yetirmək lazımdır: içəridə, açıq havada, idman zalında.
[101] Bu şərait həm içəridə, həm həyətdə müşahidə oluna bilər. Yağışlı havada içəridə baş verməlidir. 1 saat kumulyativdir.
[102] Bax 84 N-li qeydə.
[104] Bunu müəyyən etmək üçün qrupdakı nümayişetdirici materiallara və tərbiyəçi-müəllimin planlaşdırmasına baxmaq lazımdır.

| | | | |
|---|---|---|---|
| | haqqında əvvəlcədən uşaqları məlumatlandırırlar.<br><br>3.4. Qrupda oyun üçün resurslar və yer var.[100] | növbələr siyahısı tutulur və s.[103] | |
| **33. Qrup məşğələləri zamanı oyunlar və tədris[105]**<br>*1–6 yaş arası uşaqlar üçün* | | | |
| 1.1. Təklif olunan tapşırıq uşaqlara maraqlı deyil və ya yaxşı izah olunmayıb (suallara cavab verilmir, təlimatlar aydın deyil).<br><br>1.2. Tərbiyəçi-müəllimlər və digər əməkdaşlar tərəfdən verilən nümunələr anlaşılmazdır, kiçikdir və ya hamıya verilmir, nümayiş etdirilən əyani vəsaitlər uşaqların göz səviyyəsində deyil, hündürdən asılır, bir dəfə | 3.1. Qrupa verilən tapşırıq uşaqların yaş səviyyəsinə uyğundur, hər biri fəaliyyətə cəlb olunub, uyğun suallar verir və sakit oturaraq fərdi şəkildə işləyir.<br><br>3.2. Fəalliyyət (tapşırıq) zamanı verilən izahatlar və təlimatlar uşaqlar üçün aydındır: tərbiyəçi-müəllimin oxuduğu kitabı, göstərdiyi posteri, nümunəni, praktik aləti | 5.1. Bütün qrup fəaliyyəti zamanı tərbiyəçi-müəllim və digər əməkdaşlar uşaqların ehtiyaclarını və cəlbolunma səviyyələrini diqqətdə saxlayırlar: hekayənin oxusu zamanı uşaqlar oturmaqdan yorulublarsa, onlara daha fəal məşğuliyyət təklif edilir; danışanda emosiyalı və animasiyalı danışıq tərzindən istifadə olunur.[106] | 7.1. Bütün uşaqlar qrupun işində fəal iştirak edirlər.<br><br>7.2. Uşaqlar ayrı-ayrı masalarda otururlar, çətinlik çəkən uşaqlara dəstək verilir.<br><br>7.3. Uşaqlara tapşırıqları yerinə yetirdikdən sonra digər sahəyə keçməyə icazə verilir. TƏTBİQ EDİLMİR yazıla bilər. |

---

[100] 3.4-cü və 5.3-cü indikatorlara BƏLİ yazmaq üçün müşahidə olunan oyun zamanı bütün uşaqların oyuna cəlb olunması qeydə alınmalı və hər bir uşaq üçün maraqlı və cəlbedici vəsaitin (oyuncaq, kitab, pazl və digər) mövcud olması qeydə alınmalıdır. Əgər qrupda vəsaitlər var, amma uşaqların əksəriyyəti hər hansı bir sevdiyi oyuncaq və ya vəsaitlə oynamaq istəyirsə, müşahidəçi əməkdaşların bu vəziyyəti necə idarə etməsinə diqqət yetirməlidir. Məs., növbəli şəkildə müvəqqəti fərqli bir alternativ təklif edilməlidir. Vəsaitlərin mövcudluğu qeydə alınırsa, amma uşaqlar onlar ilə oynamır və ya onlar uşaqlar üçün əlçatan deyilsə, 3.4--cü. və 5.3-cü indikatorlara XEYR yazılmalıdır. BƏLİ yazmaq üçün müşahidəçi qrupda uşaqların seçimi üçün çoxlu sayda müxtəlif vəsaitlərin olması və uşaqların seçim etmək bacarığına malik olması qənaətinə gəlməlidir.

[103] Əgər müşahidə zamanı belə bir sistemin mövcudluğu qeydə alınmayıbsa, lakin müşahidə olunan qrupda uşaqlar sərbəst oyun zamanı rahat şəkildə oyuna cəlb olunublarsa, 5.4-cü indikatora BƏLİ yazmaq olar.

[105] Burada qrupdakı bütün uşaqlar eyni fəaliyyətlə məşğul olduğu məşğələlər nəzərdə tutulur. Belə məşğələlər dairədə və ya masa arxasında da təşkil oluna bilər. Əsas məqam odur ki, uşaqların hamısı eyni tapşırıq üzərində işləyirlər.

[106] Animasiyalı danışmaq oxuduqlarını canlandırmaq deməkdir: quşların, heyvanların səsini təqlid etmək, hərəkətləri, mimika ilə emosiyaları göstərmək və s.

| | | | |
|---|---|---|---|
| tələsik göstəriş və izahatlar verilir, suallara cavab verilmir.<br><br>1.3. Tapşırıqları yerinə yetirmək passiv iştirak tələb edir: uşaqlar, əsasən, oturmalı, baxmalı və qulaq asmalıdırlar.<br><br>1.4. Çətinlik çəkən uşaqlarla kobud rəftar olunur: “dəfələrlə göstərdim”, “neçə dəfə demək olar”, “artıq sual vaxtı deyil” kimi ifadələrdən istifadə edilir. | hər kəs görür, toxuna və yaxından müşahidə edə bilir.<br><br>3.3. Fəaliyyət zamanı uşaqlardan fəallıq gözlənilir: mahnı oxumaq, bir az fəal olmaq, suallara cavab vermək, tərbiyəçi-müəllimlərə kömək etmək və s.<br><br>3.4. Çətinlik çəkən uşaqlarla xoş rəftar olunur: diqqətlərini cəlb etmək üçün müsbət yollar tətbiq olunur. | 5.2. Bütün qrup fəaliyyətində iştirak etməkdə çətinlik çəkən uşaqlara dəstək verilir: utancaq (ağlayan) uşaq qucaqda oturur, uşağa öz oyuncağını əlində saxlamağa icazə verilir; yaxşı görə bilməyən uşağa yaxınlaşılır və s.<br><br>5.3. Bütün qrupa ayrılan vaxt uşaqlara faydalı və maraqlı məlumatların verilməsi üçün istifadə edilir: həftənin mövzusu barədə təqdimat edilir, uşaqların hazırladıqları layihələr üzrə təqdimatlar dinlənilir, yeni vəsaitlərdən necə istifadə edildiyi izah olunur; qrup qaydaları yaradılır; ekskursiyalar haqqında elanlar verilir və s. | |